# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 212 (8528) CÜMƏ AXŞAMI, 15 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İlham Əliyevin ədalətli savaşı

**Danışıqlar prosesinin baş tutmayacağı təqdirdə Azərbaycanın öz ərazi bütövlüyünü təmin etmək üçün güc yoluna əl atacağı məlum idi. Bu hüququ bizə dünyada qəbul edilmiş ərazi bütövlüyünün pozulmasının yolverilməzliyinə dair beynəlxalq prinsiplər, o cümlədən BMT-nin nizamnaməsi verir. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə də, BMT-yə və digər təşkilatlara üzv olanda da Dağlıq Qarabağ respublikamızın ərazisi kimi tanınıb.**

### Azərbaycan Ordusu bir daha qüdrətini nümayiş etdirdi

Sentyabrın sonlarından başlanan Vətən müharibəsi Azərbaycanın öz torpaqları uğrunda haqlı mübarizəsidir. Bu, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ədalətin bərpa olunması üçün müqəddəs və tarixi savaşıdır. Bu müharibənin nə vaxtsa başlanacağı gözlənilən idi. Danışıqları pozmaqla, Azərbaycana qarşı müxtəlif hərbi təxribatlar törətməklə, işğal olunmuş ərazilərimizdə qanunsuz məskunlaşdırma həyata keçirməklə Ermənistan özü bu tarixi müəyyənləşdirdi.

Sentyabrın 27-dən başlanan hərbi əməliyyatların gedişatı məlum həqiqətlərə yeni işıq saldı, praktik baxımdan onları təsdiq etdi. Belə ki, cəbhə xəttində baş verənlər, Ermənistan silahı qüvvələrinin növbəti təxribatının qarşısının Ordumuz tərəfindən dəyanətlə alınması və işğal edilmiş torpaqlarımızın azadlığı uğrunda dərhal əks-hücum planının həyata keçirilməsi ilk növbədə onu göstərdi ki, Azərbaycan artıq erməni təcavüzünə dözmək fikrində deyil.

Başqa bir həqiqət isə Azərbaycan Ordusunun Ermənistan qarşısında əzici üstünlüyə malik olmasının növbəti dəfə döyüş meydanında sübuta yetirilməsidir. Əslində, Azərbaycanın Ermənistan qarşısında hərbi üstünlüyə malik olması beynəlxalq səviyyədə etiraf olunan reallıqdır. Danışıqların baş tutmayacağı təqdirdə hərbi gücdən istifadənin mümkünlüyünü heç vaxt gizlətməyən Azərbaycanda bunun üçün ordu quruculuğu ilə bağlı məsələlər uzun müddətdir prioriet vəzifələr sırasında yer alır. Hərbi sənaye kompleksi inkişaf edən dövlətlərlə bu məqsədlə sıx əməkdaşlığın həyata keçirilməsinin nəticəsi olaraq hazırda Azərbaycan Ordusunun silahlanmasında ən müasir döyüş əməliyyatlarının aparılmasına imkan verən texnikalar mövcuddur. Cəmi bir neçə gün ərzində Ermənistanın Dağlıq Qarabağdakı ordusunun darmadağın edilməsi də bunu təsdiqləyir.

*Ardı 3-cü səh.*

## Ali Baş Komandan İlham ƏLİYEV:

## “Azərbaycan Ordusu Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndini işğaldan azad edib”

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır! AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində yazıb.

## “Bizim icazəmiz olmadan hər hansı ölkə sülhməramlılarını bizim torpağımıza göndərə bilməz”

### Prezident İlham Əliyev Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibə verib

**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibə verib. Oktyabrın 14-də həmin televiziya kanalında dövlətimizin başçısının müsahibəsi yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.**

**- Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə birlikdəyik. Cənab Prezident, bir yandan cəbhədə, bir yandan diplomatiyada sıx qrafikiniz var. “Haber Türk”ə vaxt ayırdığınız üçün Sizə çox təşəkkür edirəm.**

- Sağ olun.

*Ardı 2-ci səh.*



## Birinci vitse-prezident Mehriban ƏLİYEVA:

## “Hər bir Azərbaycan əsgərinin həyatı və sağlamlığı üçün dua edirəm”



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsində paylaşım edilib.**

AZƏRTAC-ın məlumatına görə, paylaşımda deyilir:

“Hər bir Azərbaycan əsgərinin həyatı və sağlamlığı üçün dua edirəm! Uca Tanrı Vətən naminə bu müqəddəs mübarizədə onlara yar olsun! Qarabağ Azərbaycandır!”

## “Gecə-gündüz yorulmadan göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndiririk”

**Müzəffər ordumuzun cəbhədə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını müvəffəqiyyətlə alması, ard-arda qələbələr qazanması Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır.**

**Onlar sevinc hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.**

**AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.**

Rusiyanın Arxangelsk şəhərindən **Hüseyn Əliyev** yazır: “Hörmətli cənab Prezident, mən doğma Vətənimdə baş verən hadisələri dərin həyəcanla izləyir, hər qələbəyə ürəkdən sevinirəm. Siz Azərbaycan xalqının ümidi, ölkənin və onun sərhədlərinin təhlükəsizlik qarantısınız. Allahdan ərazi bütövlüyümüzün bərpası yolunda müqəddəs amalınızı sonadək icra etmək üçün Sizə və ordumuza güc, qüvvət arzulayıram. Həmçinin şəhidlərimizin ailələrinə dərin hüznlə başsağlığı verirəm”.

Türkiyənin İstanbul şəhərindən **Mesut Karagöz:** “Hörmətli cənab Prezident, illərdir qanayan yaramız olan Dağlıq Qarabağın erməni işğalından azad olunmasına başlanılması ürəyimizə su səpdi. Sentyabrın 27-də erməni hücumundan sonra başlanan müharibədə Türkiyə xalqı olaraq Azərbaycanla tək ürək olduq. Allah Azərbaycanı müzəffər etsin! Bu müqəddəs yolunuz mübarək olsun!

*Ardı 7-ci səh.*

# İkinci Xocalı

### Ermənistanın Gəncə cinayəti Azərbaycan xalqına qarşı törədilən növbəti soyqırımıdır

**Məhz ikinci Xocalı...**

**Yenə də hədəfə alınmış mülki əhali, öldürülmüş, yaralanmış körpələr, uşaqlar, qocalar, qadınlar...**

**Və bu murdar, insanlıqdan uzaq əməllərin törədilməsində güdülən dəhşətli məqsədlər...**

**Bəli, ermənilərin 11 oktyabr 2020-ci ildə törətdikləri Gəncə faciəsi, düz 28 il əvvəl Xocalıda həyata keçirdikləri soyqırımının davamıdır...**

XX əsr boyu ermənilərin Azərbaycan xalqına qarşı belə cinayətləri bir-birini əvəz edib: 1905-ci ildə də xalqımıza qarşı soyqırımı ediblər, 1918-ci ildə eyni dəhşətləri təkrarlayıblar. 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyası, 1988-ci il hadisələri tariximizə ermənilər tərəfindən törədilən vəhşiliklər, vandalizm, terrorçuluq kimi yazılıb.

*Ardı 9-cu səh.*




# Daha bir qələbə: *TAP-ın tikintisi başa çatdı*

### Bu kəmər Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq

Daha bir qələbəmizin müjdəsini aldıq. Bu, Azərbaycanın neft-qaz tarixində qazanılan, bir-birinin ardınca gerçəkləşən qlobal layihələr salnaməsinə yazılan bir qələbədir. Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) tikintisi yekunlaşıb.

TAP Azərbaycanın təşəbbüsçüsü və aparıcı qüvvəsi olduğu “Cənub qaz dəhlizi” layihəsinin ayrılmaz hissəsi, dörd seqmentindən sonuncusudur. Bu kəmər Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq.

Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyacaq 3500 kilometrlik “Cənub qaz dəhlizi” üç kəmərdən - CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

*Ardı 10-cu səh.*

# Üçüncü cəbhə “savaş”a qoşulur

**Müasir müharibədə düşmənlə mübarizə üç cəbhədə aparılır. Birincisi, birbaşa döyüşlərin aparıldığı ərazilərdir. İkinci cəbhədə diplomatlar döyüşür. Üçüncüyə isə sosial media və bütünlükdə informasiya məkanında aparılan mübarizə aiddir.**

Biz döyüş cəbhəsində irəli gedirik, düşmən məğlub edilir, lakin dünyada hələ də “Böyük Ermənistan” mifinə, “qədim” və “zavallı” xalqın “iztirab”larına, uydurma erməni genosidinə inananlar az deyil. Bu gün də ermənilər həmin uydurma təbliğata milyardlarla vəsait xərcləyirlər. Yenə dünyanın aparıcı KİV-də “zavallı” xalqın mərsiyyələri dəbdədir, yenə KİV-də onlarca yazı dərc edilir, verilişlər səsləndirilir, reportajlar verilir, filmlər çəkilir, bir sözlə, yalanlar tirajlanır, erməni xalqının “əzabkeş” surəti gündəmdən düşmür.

*Ardı 10-cu səh.*

**Azərbaycan Ordusu tərəfindən düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd “Osa-AKM” ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, 3 ədəd “Elbrus” ballistik raket qurğusu raketləri ilə birlikdə və bir neçə avtomobil texnikası məhv edilib**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Bizim icazəmiz olmadan hər hansı ölkə sülhməramlılarını bizim torpağımıza göndərə bilməz”

*Əvvəli 1-ci səh.*

**- Cənab Prezident, Ermənistan ilə Azərbaycan arasında Moskvada 11 saat yarım davam edən bir görüş keçirildi. Ancaq bu görüşdən sonra Ermənistan xüsusi qəddarlıqla Gəncə şəhərini atəşə tutmağa, mülki şəxsləri hədəfə almağa başladı. Burada diqqətçəkən məqam Ermənistanın öz ərazisindən Azərbaycanı hədəfə almasıdır. Ermənistan diplomatiya sahəsində belə bir görüş keçirilərkən bu cür hücuma niyə ehtiyac hiss etdi? Dünya ictimaiyyətindən bu məsələdə istədiyiniz dəstəyi gördünüzmü, Sizə gələn mesajlar oldumu?**

- Ermənistanın bu çirkin siyasəti anlaşılandır. Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür. Bu dəfə də bütün cəbhəboyu Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək bir neçə şəhər və kəndimizi işğaldan azad etmişdir və işğaldan azadetmə əməliyyatımız uğurla davam edir. Bu gün səhər mənə verilən məlumata görə, Azərbaycan Ordusu bu istiqamətdə daha böyük uğurlara imza atdı. Bu məsələ ilə bağlı lazım olan vaxtda açıqlama veriləcək.

Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər. Fəqət mən demişdim ki, bizim qisasımız döyüş meydanında olacaq. Biz heç zaman mülki şəxslərə qarşı heç bir addım atmırıq və bizim bütün hədəflərimiz hərbi hədəflərdir. Əməliyyatın ilk günlərindən bütün hərbi hədəflər bir daha nəzərdən keçirildi və bizim dəqiq, sərrast atışlarımız bu hədəfləri məhv etdi. Erməni ordusuna çox böyük zərər vuruldu, 200-dən çox tank, 2 “S-300” hava hücumuna qarşı qurğu, bir çox başqa texnika məhv edildi, 33 tank və digər texnika qənimət kimi götürüldü.

Bu, Ermənistanın növbəti terror aktıdır. Ancaq bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşacağıq, daha əzmlə, iradə ilə öz torpaqlarımızı azad edəcəyik və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldıracağıq.

O ki qaldı, beynəlxalq təşkilatların və beynəlxalq ictimaiyyətin buna reaksiyasına, Türkiyə hər zaman olduğu kimi, bizi bir daha bu məsələ ilə bağlı açıq və birmənalı dəstəklədi. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın açıqlamaları, digər yüksəksəviyyəli vəzifəlilərin açıqlamaları bir daha qardaşlıq mövqeyinin təzahürü idi. Pakistan və onun Baş Naziri çox böyük həmrəylik göstərərək çox müsbət açıqlama vermişdir, digər ölkələr də vermişdir. Ancaq deyə bilmərəm ki, bu, dünya miqyasında geniş vüsət almışdır. Halbuki hər kəs üçün bu, gün kimi aydındır. Atəşkəs rejimi haqqında açıqlama verilir, ondan bir gün keçməmiş belə namərd hücum təşkil edilir. Bu, bir daha onu göstərir ki, atəşkəsi kim istəmir.

Mən demişdim, bizim hədəfimiz, bizim məqsədimiz işğal edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşlarını qaytarmaqdır. Bildirmişdim, atəşkəs imkan verəcək ki, bu məsələ artıq hərbi müstəvidən siyasi müstəviyə, diplomatik müstəviyə keçsin. Bu məsələ diplomatik müstəvidə danışıqlar masası arxasında həll olunsun və Ermənistan hələ də işğal altında olan digər torpaqlardan çəkilsin, Azərbaycan vətəndaşları oraya qayıtsın və sülh yaransın. Ancaq görünür ki, Ermənistanın planları tam başqa imiş. Onlar hesab edirmişlər ki, bu atəşkəsdən istifadə edərək, bunu istismar edərək öz hərbi məğlubiyyətlərini bir qədər azalda bilərlər, vaxt qazana bilərlər, yeni qüvvələr səfərbər edə bilərlər və beləliklə, Azərbaycana qarşı hücumları davam etdirə bilərlər. Amma onlar yanıldılar. Mən demişdim ki, əgər Ermənistan müsbət davranış göstərməsə, peşman olacaq və haqlı idim.



**- Cənab Prezident, Sizin Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri 11 saat yarım davam edən bir görüş keçirdilər. Siz bu görüş davam edərkən açıqlama verdiniz, bir şərtiniz var idi, bizə bir təqvim versinlər. Yəni Ermənistanın Qarabağdan çəkilməsi üçün bir təqvim verilsin. Moskvadakı görüşdə bir təqvim, ya da Qarabağın gələcəyinə dair Moskvanın ortaya qoyduğu bir layihə, bir plan oldumu?**

- Xeyr, təqvim verilmədi, biz də çox israr etmədik. Çünki Moskva anlaşmasında, açıqlamasında bizi qane edən, bizim maraqlarımıza cavab verən maddələr bizi təmin etdi. Onu da bildirməliyəm ki, Moskva müzakirələrinin uzun çəkməsinin səbəbi o idi ki, bizim üçün məqbul olmayan bəzi maddələr o açıqlamaya salınmalı idi. Bizim bundan xəbərimiz yox idi. Bizim Xarici İşlər nazirimiz Moskvaya gələndə və artıq müzakirə masasına əyləşəndə hər iki nazirə təkliflər verildi. Təbii ki, mənimlə əlaqə saxlanıldı və biz müntəzəm olaraq əlaqədə idik. Mən bizim şərtlərimizi demişdim və o şərtlərdən kənarda hər hansı bir razılaşma mümkün deyildi.

Ona görə biz vəziyyəti nəzərə alaraq, təqvimlə əlaqədar mövqeyimizi bir qədər yumşaltdıq. Ancaq bu, o demək deyil ki, bu təqvim olmayacaq, bu, olacaq. Ancaq nə zaman? Artıq müzakirə prosesi çərçivəsində. O açıqlamada göstərildi ki, müzakirələr baza prinsipləri, yəni Madrid prinsipləri əsasında bərpa edilir ki, o da işğal altındakı torpaqlarımızın Azərbaycana qaytarılmasını təsbit edir. Eyni zamanda danışıqlar formatı dəyişməz olaraq qalır. Yəni danışıqlar Ermənistan və Azərbaycan arasında aparılacaq. Qondarma “Dağlıq Qarabağ respublikası”nın hər hansı bir nümayəndəsinin bu danışıqlarda iştirakı müzakirə mövzusu deyil. Bunlar bizi qane etdi. Bizim təxminimiz ondan ibarət idi ki, artıq dərhal danışıqlar başlasın və təqvim məhz bu danışıqlar çərçivəsində bizə təqdim edilsin. Bu təqvim bizi qane etməlidir. Yəni bu, çox uzunmüddətli proses ola bilməz. Biz otuz il gözləmişik. Artıq Azərbaycan xalqının səbri tükənibdir. Əgər danışıqlar bərpa edilərsə, əminəm ki, bu təqvim bizə veriləcək. Ancaq Ermənistanın bu anlaşmanı, bu açıqlamanı pozması göstərir ki, onların niyyəti, sadəcə olaraq, vaxt qazanmaq və Azərbaycana öz hücumunu davam etdirməkdir.

**- Cənab Prezident, Dağlıq Qarabağın müstəqilliyi ilə bağlı Ermənistanın cəhdləri var. Ermənistan Fransada, Rusiyada, hətta erməni diasporunun güclü olduğu digər ölkələrdə siyasi təzyiq formalaşdırmağa çalışır. Qarabağın işğaldan azad edilməsi məsələsində Siz qətiyyətlisiniz. Qarabağ işğaldan azad edildikdən sonra Sizin necə bir modeliniz var? Bir muxtar bölgə, müstəqil bir struktur, necə bir proses olacaq Qarabağla bağlı?**

- Birincisi, onu deməliyəm ki, Ermənistanın hazırda göstərdiyi cəhdlər yersizdir və onların özləri üçün zərərlidir. Çünki birinci növbədə heç bir ölkə Azərbaycanın ayrılmaz hissəsi olan və beynəlxalq hüquq baxımından Azərbaycana mənsub olan Dağlıq Qarabağa müstəqillik verməyəcək, onu tanımayacaq. Belə olan halda bu cəhdlər səmərəsiz qalacaq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb. Baxın, Minsk qrupuna həmsədrlik edən ölkələr, onlar bizim ərazi bütövlüyümüzü tanıyır. Avropa İttifaqı ilə bizim “Tərəfdaşlıq prioritetləri” adlı sənəd paraflanmışdır. Orada Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək göstərilir. Yəni mən inanmıram ki, hər hansı bir ölkə Dağlıq Qarabağın müstəqilliyini tanısın. Çünki bundan heç bir saat keçməmiş bu ölkə ilə biz bütün diplomatik əlaqələrimizi kəsərik. Bu, mütləqdir. Ona görə Ermənistanın bu cəhdləri, sadəcə olaraq, daxilə, yəni öz ictimaiyyətinə hesablanıb ki, sanki bunlar da hər hansı bir diplomatik fəaliyyətdədirlər.

O ki qaldı, sülhdən sonrakı dönəmə, bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Bizim mövqeyimiz həm tarixi ədalətə, beynəlxalq hüquqa və dünyada mövcud olan müsbət təcrübəyə əsaslanır. Yəni birinci mərhələdə işğal olunmuş rayonlardan erməni silahlı qüvvələri çıxarılır. Prinsip etibarilə bu məsələ artıq Minsk qrupu çərçivəsində təsbit edilib, - beş rayon, ondan sonra iki rayon, ondan sonra Dağlıq Qarabağın özündən, Şuşadan, Xankəndidən, - orada bir çox kəndlərdə azərbaycanlılar yaşayıb, - Azərbaycan vətəndaşları oraya qayıdır və Dağlıq Qarabağın gələcəyi ilə əlaqədar müzakirələr davam edir. Ancaq yeni bir şəraitdə, yeni bir iqlim çərçivəsində. Artıq biz sülhə daha da yaxınlaşacağıq. Ona görə orada yaşayan ermənilərlə əlaqədar bizim mövqeyimizdə dəyişiklik yoxdur. Azərbaycan çoxmillətli dövlətdir. Azərbaycanın müxtəlif yerlərində, ilk növbədə, Bakı şəhərində minlərlə erməni yaşayır və onlar bizim vətəndaşımızdır. Bizim ölkəmizdə bir çox millətlər yaşayır və bu, ölkəmizin gücünü artırır. Ona görə Dağlıq Qarabağda yaşayan ermənilər narahat olmasınlar. Biz onların canını o kriminal xunta rejimindən qurtarandan sonra onlar daha yaxşı yaşayacaq, daha güvənli, daha təhlükəsiz şəraitdə yaşayacaq və onların rifahı daha da artacaq. Çünki orada indi səfalət hökm sürür. Biz oraya sərmayə də yatırarıq, biz orada sosial proqramlar da icra edərik, iş yerlərinin yaradılması ilə əlaqədar proqramlarımız olacaqdır. Bütün bunlar orada yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar üçün yeni bir mərhələ olacaq. Bizim mövqeyimiz bundan ibarətdir. Ermənistanın mövqeyi isə azərbaycanlıları oradan qovmaq, etnik təmizləmə aparmaq, Azərbaycanın tarixi-dini abidələrini yerləyeksan etmək və ondan sonra elan etmək ki, bu, qədim Ermənistan torpağıdır. Halbuki ermənilər oraya çar Rusiyası tərəfindən XIX əsrin əvvəlində köçürülüb. Bu, tarixdir. Bu tarixi biz bilirik. Ona görə bizim mövqeyimiz bundan ibarətdir. Azərbaycan xalqı bu mövqeyi bilir və bunu dəstəkləyir.

**- Cənab Prezident, bu fikirlərinizdən başa düşdüyüm qədər, Siz, təkcə əməliyyatı deyil, əməliyyat sonrasını da izah etdiniz, mərhələ-mərhələ konsepsiyasından bəhs etdiniz. Ancaq bilirik ki, münaqişə dövründə çox böyük kədər yaşandı, Qarabağda 30 min Azərbaycan türkü həlak oldu, şəhid oldu. Yenidən o coğrafiyada xalqlar birlikdə yaşaya biləcəkmi? Yaxud ermənilər və Azərbaycan türkləri ayrı-ayrı rayonlarda yaşayacaqlar? Necə bir planlaşdırma olacaq?**

- Bilirsiniz, Azərbaycan xalqı çox xeyirxah xalqdır. Məhz ona görə Azərbaycanda onlarca digər xalqların nümayəndələri yaşayırlar, sülh, ləyaqət içində yaşayırlar. Odur ki, mən tam əminəm, ermənilər və azərbaycanlılar o bölgələrdə bir yerdə yaşaya bilərlər. Necə ki, bu gün Azərbaycanın digər yerlərində, necə ki, məsələn, Gürcüstanda. Gürcüstanda 300 mindən çox azərbaycanlı və təqribən 200 minə yaxın erməni əhali var. Bəzi kəndlərdə onlar bir yerdə yaşayırlar, bir kənddə. Onların arasında hər hansı bir problem yoxdur. Onlar normal qonşu kimi yaşayırlar, Rusiyada da, Ukraynada da, digər ölkələrdə də. Niyə də bunu burada edə bilmərik?

Mən hesab edirəm ki, biz buna hazır olmalıyıq. Biz xalqlarımızı buna hazırlamalıyıq. Mənim bu gün sizə dediyim sözlər Azərbaycan xalqı tərəfindən qəbul edilir və dəstəklənir. Bu, eyni zamanda bu gün Dağlıq Qarabağda yaşayan ermənilərə də mənim müraciətimdir. Onlar bilsinlər ki, Azərbaycan xalqı onların düşməni deyil. Sadəcə olaraq, Azərbaycan xalqı öz dədə-baba torpaqlarında yaşamaq istəyir. Buna Azərbaycan xalqının haqqı var. Onlar da yaşasınlar, biz də yaşayaq. Amma bizi qovsunlar, onlar yaşasınlar, bu, ədalətli deyil. Biz buna heç vaxt razı ola bilmərik.

Əlbəttə ki, hər bir müharibə sülh ilə nəticələnir. Ona görə indi biz müharibədən sonrakı mərhələyə də baxmalıyıq. Əgər hər iki tərəfdə güclü siyasi iradə olarsa və beynəlxalq təşkilatlar bu məsələdə bizə kömək edərsə, hesab edirəm ki, buna nail olmaq mümkün olacaq. O qədər də asan olmayacaq. Ancaq biz çalışmalıyıq ki, buna nail olaq.

**- Cənab Prezident, hazırda Ermənistan Azərbaycanın yaşayış məntəqələrini atəşə tutur. Azərbaycan isə əməliyyat zamanı yalnız hərbi obyektləri hədəfə alır, ancaq Qarabağ bölgəsindəki ərazilərdə əməliyyat həyata keçirir. Amma Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə alır. Bundan məqsəd panika, xaos və qorxu yaratmaqdırmı? Siz hazırda Azərbaycan xalqının bu psixologiyasını necə görürsünüz?**

- Siz haqlısınız, məqsəd budur, panika yaratmaq, xaos yaratmaq, qorxu yaratmaq. Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişibdir. Eyni zamanda yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir. Dövlətimizin güclü iradəsi var, güclü ordumuz var. Məhz buna görə bu xain hücumlar bizim iradəmizi qıra bilmədi. Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil. Bu gün səhər mənə verilən məlumata görə, 100-dən çox mərmi səhər saat 7-dən indi saat 10-un yarısıdır, 2 saat yarım ərzində mindən çox mərmi Tərtər şəhərinə düşüb. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir. Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər. 2016-cı ildə, məşhur Aprel döyüşlərindən sonra mən erməni vəhşiliyindən zərər çəkmiş bölgələrə getdim və bir kənddə oldum. O kənddən erməni mövqelərinə məsafə 100-150 metr idi. Bizim hərbçilər mənə dedilər ki, oraya getməyin. Getməyin, ora təhlükəlidir. Dedim, orada bizim insanlar yaşayır, onlar üçün təhlükəli deyilmi? Onlar nə qədər cəsarətli, nə qədər qürurlu insanlardır ki, orada düşmənin atəşi altında yaşayır, qurur, övladlarını böyüdürlər. Azərbaycan xalqı bax, bu xalqdır!

Ona görə bu xain hücumlar bizi zərrə qədər də yolumuzdan döndərə bilməz. Ermənistanın digər bir məqsədi bizi dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!

**- Cənab Prezident, Minsk qrupu ilə bağlı. Münaqişənin 30 ildir davam etməsinə baxmayaraq, bir həll yolu tapılmadı. Dünən bir media qurumuna müsahibənizdə formatın yenidən nəzərdən keçirilə biləcəyini, daha doğrusu, tərkibin dəyişə biləcəyini dediniz. Bu tərkib necə olmalıdır? Türkiyə masada rol almalıdırmı? Çünki səhər saatlarında Rusiyadan bir açıqlama gəldi, Türkiyənin o masada olması çox da arzu edilmir. Bu məsələyə necə baxırsınız? Bir də bununla bağlı daha bir sual vermək istəyirəm. Cənab Prezident, Rusiya bu prosesdə Qarabağa sülhməramlılar göndərmək istəyərsə, Sizin buna münasibətiniz necə olar? Səhv etmirəmsə, bir media qurumunda belə bir sual ilə qarşılaşmışdınız?**

- İlk növbədə, onu bildirməliyəm ki, sülhməramlıların bölgəyə göndərilməsi hər iki ölkənin - Ermənistanın və Azərbaycanın razılığı əsasında olmalıdır. Həmçinin sülhməramlıların göndərilməsi və sülhməramlıların tərkibi. Yəni orada kim olacaq, hansı ölkələr olacaq? Əgər hər hansı bir ölkə veto qoyarsa, təbii ki, bu, olmayacaq. İkinci məsələ ondan ibarətdir ki, hər kəs anlamalıdır, bu gün sülhməramlıların göndərilməsi deyəndə Azərbaycan torpaqlarından, suveren Azərbaycan ərazisindən söhbət gedir. Bizim icazəmiz olmadan hər hansı ölkə sülhməramlılarını bizim torpağımıza göndərə bilməz. Bu, qanuna ziddir. Bu, beynəlxalq hüquqa ziddir. Bu, qəbuledilməzdir.

Ona görə bizdə belə bir narahatlıq yoxdur. Belə səylər, belə istəklər ola bilər. Mən bunu istisna etmirəm. Ancaq bütün məsələlər masa üzərində olmalıdır. Onu da bildirməliyəm ki, müzakirə mövzusu olan baza prinsiplərində sülhməramlıların göndərilməsi ən son mərhələdə nəzərdə tutulur. Yəni, ilk növbədə, bayaq qeyd etdiyim məsələlər həll edilməlidir - torpaqların boşaldılması, məcburi köçkünlərin qaytarılması, sərhədlərin açılması, nəqliyyat və ticarət əlaqələrinin qurulması. Ondan sonra sülhməramlıların gətirilməsi də istisna deyil. Ancaq nəzərə alsaq ki, bu 30 illik müzakirə müddətində biz müsbət nəticəyə yaxınlaşmadıq və bu məsələ heç müzakirə də olunmayıb. Ona görə bu məsələ ilə bağlı hər hansı bir fərziyyə, istək ola bilər. Ancaq Azərbaycanın razılığı olmadan bu, mümkün deyil.

O ki qaldı, Minsk qrupunun fəaliyyəti ilə əlaqədar məsələyə, mən artıq bir neçə dəfə demişəm ki, Minsk qrupu 1992-ci ildə yaradıldı. O zaman hansı əsaslar buna səbəb oldu biz bilmirik. O qrupda elə ölkələr var ki, heç bu bölgə ilə maraqlanmırlar. Heç bu bölgədə onların hər hansı maraqları da yoxdur, təsiri də yoxdur. Ona görə əgər bu münaqişənin həll edilməsini istəyirlərsə, - biz bunu istəyirik, - elə ölkələr olmalıdır ki, onlar real həyatda sülhün təmin olunmasına xidmət edə bilsinlər.

Təbii ki, biz qardaş Türkiyəni bu prosesdə görürük. Biz bunu alqışlayırıq. Biz bilirik ki, Minsk qrupu ATƏT tərəfindən qurulmuşdur və ATƏT-in öz qaydaları var. O qrupun tərkibinin dəyişdirilməsinin, yəqin ki, hüquqi prosedurları var. Biz o dərinliyə getmək istəmirik. Ona görə mən demişəm ki, de-yure, ya da de-fakto, fərq etməz. Əsas odur ki, Türkiyə bu masada olsun. Onsuz da var. Çünki əziz qardaşım, hörmətli Rəcəb Tayyib Ərdoğan Qarabağ məsələsi ilə bağlı hörmətli Putinlə dəfələrlə görüşmüşdür, dəfələrlə danışmışdır. Artıq uzun illərdir, yeni on ildən çoxdur ki, bu məsələ Türkiyə-Rusiya gündəliyində duran bir məsələdir. Mənim bundan xəbərim var. Həm Türkiyə Prezidenti, həm Rusiya Prezidenti bu haqda mənə demişdilər. Onsuz da Türkiyə var. İndi daha çox, daha böyük həcmdə, daha böyük miqyasda var.

Bilirsiniz ki, Türkiyənin Xarici İşlər naziri cənab Mövlud Çavuşoğlu cənab Lavrovla, Türkiyənin Müdafiə naziri cənab Hulusi Akar cənab Şoyqu ilə telefonla danışırlar. Kim deyə bilər ki, Türkiyə prosesdə yoxdur. Türkiyə yoxdursa, nə üçün danışırsınız? Türkiyə var. Biz də əlimizdən gələni edəcəyik ki, bundan sonra da olsun. Çünki Türkiyənin burada iştirakı olmasa, bu məsələ həll edilə bilməz. Bunu hər kəs anlamalıdır. O ki qaldı, yenə də deyirəm, bu məsələnin formal tərəfinə, bu formal tərəf qala bilər, Minsk qrupu da qala bilər, onsuz da 30 il ərzində bir nəticə hasil etmədi. Ancaq bu məsələ nə qədər tez həll olunarsa, o qədər də tez Minsk qrupuna ehtiyac qalmayacaq.

**- Cənab Prezident, bir tərəfdən, Ermənistanın baş naziri Paşinyan əməliyyatdan əvvəl Şuşada rəqs etdi, xalqını coşdurmağa çalışdı. Bir tərəfdən də müharibədə məğlub olduqca Türkiyəni ittiham etməyə başladı. Türkiyəni buraya əcnəbi döyüşçüləri gətirməkdə günahlandırdı. Eyni zamanda beynəlxalq medianın da bu mövzuya çox yer ayırdığını gördük. Həmçinin Amerikadakı bir qəzetdə əcnəbi döyüşçülərin, Türkiyə təyyarələrinin Azərbaycanda olduğu xəbərləri yayımlandı. Siz Paşinyanın o rəqsini necə dəyərləndirirsiniz, bu gün hazırkı durum ortadadır. İkincisi, Türkiyənin mövqeyi və bu təyyarələr mövzusu ilə bağlı fikirlərinizi bilmək istərdim.**

- Paşinyanın sərxoş vəziyyətdə rəqsi və digər təhqirləri, həqarəti Azərbaycan xalqını haqlı olaraq hiddətləndirdi. Biz onun bu hərəkətlərinin heyfini bu gün döyüş meydanında alırıq, əvəzini çıxırıq. Azərbaycan əsgəri döyüş meydanında göstərir ki, kim haqlıdır, kim haqsızdır. Biz gücümüzü, xalqımızın iradəsini döyüş meydanında göstəririk. Paşinyanın digər təxribatları da cavabsız qalmır və qalmayacaq. Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Şəhidlərimizin qanı yerdə qalmır və qalmamalıdır. Bu gün azad etdiyimiz şəhərlər, kəndlər Paşinyana və onun kimilərə bizim ən gözəl cavabımızdır. O, artıq anladı ki, kim kimdir. Mən ona xəbərdarlıq etmişdim. Mən ona demişdim ki, bu yol sizi fəlakətə aparacaq. Mən demişdim ki, Azərbaycan xalqının ləyaqəti ilə oynamasın, diqqətli olsun, ehtiyatlı olsun. O, zənn edirdi ki, dünya erməniliyi onu müdafiə edəcək, o, zənn edirdi ki, böyük dövlətlər gəlib onun yerinə vuruşacaq, bu gün də bunu istəyir. O, Rusiyanın Prezidenti hörmətli Vladimir Putinə bir gündə telefonla dəfələrlə zəng etmişdir. O telefon zənglərinin bir hissəsi mətbuata verildi, bir hissəsi isə verilmədi. Bizdə məlumat var ki, bu son atəşkəsdən sonra da Paşinyan Putinə telefonla zəng etmişdir. Onun bu hərəkətləri, əlbəttə, göstərir ki, bu adam panikaya qapılıb, təşviş içindədir, özünü itirib. Azərbaycan Ordusu döyüş meydanında düşmənə elə sarsıdıcı zərbələr endirir ki, artıq onlar qeyri-adekvat duruma düşüblər. Bu, məsələnin bir tərəfi.

O ki qaldı, Türkiyənin burada iştirakı, yaxud da ki, hansısa xarici güclərin buraya gətirilməsi, bu, tamamilə yalandır. Türkiyə F-16-ları ilə əlaqədar məsələyə mən artıq münasibət bildirdim. Türkiyə F-16-ları buradadır. Onlar təlim zamanı gəlmişdilər, təlimdən və erməni hücumlarından sonra burada qaldılar. Amma onlar yerdədir, havada deyil. Onlardan heç biri bu savaşda iştirak etməyib. Türkiyədən heç bir insan bu savaşda iştirak etmir. O ki qaldı, əcnəbi insanlara, o da yalandır. O, bizə atılan iftiradır, böhtandır. Bizə bir dənə də sübut gətirilmədi. Sadəcə olaraq, Fransadan və Rusiyadan belə açıqlamalar verildi, vəssalam.

**- Konkret sübut ortaya qoyuldumu?**

- Sübut, dəlil yoxdur. Heç bir açıqlama verilmir. Bizim kəşfiyyata heç bir məlumat verilmir.

Mən sizə indi deyə bilərəm ki, kəşfiyyat orqanlarımız bizə böhtan atan ölkələrlə əlaqədə olublar, deyiblər ki, bizə dəlil, sübut verin. Vermirlər. Sözdür. İndi mətbuatda kim yazırsa yazsın, o, bizi maraqlandırmır. Onsuz da Qərb mediası hər zaman Ermənistanın tərəfini tutub və bizə bundan əvvəlki dövrdə də hər zaman çox mənfi münasibət bəsləyib. Ona görə bu iftiralara biz öyrəşmişik. Ancaq rəsmi şəxslərin açıqlamaları qəbuledilməzdir. Ya bunu sübut et, ya da ki, öz sözlərini geri götür. Belə bir şey yoxdur. Buna ehtiyac yoxdur. Azərbaycan kifayət qədər güclü orduya malikdir ki, bu məsələləri özü həll etsin.

Bir də ki, əcnəbi vətəndaşların iştirakına gəldikdə, baxsınlar Ermənistana, orada nə qədər əcnəbi terrorçular var. PKK-nın düşərgələri var orada. O cümlədən Dağlıq Qarabağda PKK-nın düşərgələri var. Biz bu bölgəni işğalçılardan təmizləyəndən sonra o düşərgələri də məhv edəcəyik.

*Ardı 3-cü səh.*

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Bizim icazəmiz olmadan hər hansı ölkə sülhməramlılarını bizim torpağımıza göndərə bilməz”

*Əvvəli 2-ci səh.*

Nə qədər əcnəbi bu gün bizə qarşı bu döyüşlərdə iştirak edir. Orada öldürülən terrorçuların üzərindən Kanada pasportları, Livan pasportları çıxıb. Onlar erməni əsillidir, ya da ki, erməni əsilli deyil, bu, başqa məsələdir. Başqa ölkənin vətəndaşı gəlib bizə qarşı müharibə aparır. Bunlar muzdlulardır.

Bir də deyirlər ki, Türkiyə Azərbaycana hərbi yardım edir. Bilirsiniz, Türkiyə bizim qardaşımızdır. Bizim qardaşlıq münasibətlərimiz artıq böyük sınaqlardan çıxıbdır. Biz Türkiyədən hərbi texnika alırıq, ancaq biz başqa ölkələrdən də alırıq. Biz Rusiyadan, İsraildən, Belarusdan, İrandan, Ukraynadan, Şərqi Avropa ölkələrindən, o cümlədən Türkiyədən alırıq. Türkiyənin indi inkişaf etmiş hərbi sənaye kompleksi var. Niyə almayaq? İndi baxın, Ermənistan nə edir? Biz pulla alırıq. Məndə tam siyahı var, o, sonra dərc ediləcək. Amma bir neçə məsələyə diqqətinizi çəkmək istəyirəm. Bu iki həftə ərzində Ermənistanın 200-dən çox tankı məhv edildi, 33 tank qənimət götürüldü. Yəni 233 erməni tankı bizdədir. Ondan sonra iki S-300 qurğusu məhv edildi. Hər birinin qiymətini hər kəs bilir. Ondan sonra hava hücumundan müdafiə sistemləri - OSA-35 məhv edildi. TOR, KUB, KRUQ, karqo avtomaşınları, tank əleyhinə silahlar. Əgər hamısını hesablasan, ancaq məhv edilən və qənimət götürülən texnika 1-2 milyard dollar dəyərindədir. Sual olunur, kasıb Ermənistan, sən bu pulu haradan tapdın? Sən bunu pulla aldınmı? Xeyr. Sənə verdilər. Kim verdi, onu hər kəs bilir. Verirlər və davam edir. Tovuz bölgəsində toqquşmadan sonra, iyulun 16-da münaqişə dayandı, iyulun 17-dən başlayaraq hər gün karqo təyyarələri Ermənistana silah daşıdı. Baxın, Ermənistanın dövlət büdcəsində bu maddələr var? Yoxdur. Ermənistanın valyuta ehtiyatı 1,5 milyard dollardır. Vəssalam. Onun başqa pulu yoxdur. Xarici dövlət borcu təqribən 8 milyard dollardır. Yəni bu ölkə iflasa uğrayıb. Haradandır bu qədər ancaq məhv edilmiş, hələ nə qədər məhv ediləcək texnika? Əgər müharibə davam edərsə, biz onların bütün ordusunu məhv edəcəyik, bütün ordusunu! Ona görə onlar müharibəni nə qədər tez dayandırsalar, o qədər də tankları, topları qoruya bilərlər. Hələ Ermənistan ərazisində nə qədər var. Rusiyanın Ermənistanda hərbi bazası var, 5 min əsgər var orada. Türkiyənin Azərbaycanda hərbi bazası var? Yoxdur. Ermənistanın İranla və Türkiyə ilə sərhədini Rusiya sərhədçiləri mühafizə edir. Azərbaycan sərhədində Türkiyə sərhədçiləri var? Yoxdur. Ona görə bizi heç kim ittiham etməsin. Yoxsa biz, necə deyərlər, açarıq sandığı, tökərik pambığı, belə bir atalar sözü var.

**- Cənab Prezident, PKK-nın Qarabağda düşərgələrindən bəhs etdiniz. Düşərgələrin hansı bölgələrdə olduğu bəllidirmi?**

- Bizdə bu barədə kəşfiyyat məlumatı var. Bu barədə mən daha ətraflı açıqlama vermək istəmirəm. Daha çox dağlıq bölgəsindədir. Çünki işğal edilmiş torpaqların bir hissəsi dağlıq ərazidir, bir hissəsi isə düzənlikdir. Onlar daha çox meşələrdə və dağlıq ərazilərdə yerləşiblər. Bu məsələ ilə bağlı biz dəfələrlə beynəlxalq təşkilatlarda öz sözümüzü demişik. Hətta mən əvvəlki vəzifəmdə olarkən, - deputat kimi Avropa Şurası Parlament Assambleyasının Azərbaycan nümayəndə heyətinin rəhbəri idim, - orada da məsələ qaldırmışdım. Avropa deputatlarının diqqətini cəlb etmişdim bu işlərə ki, onlar Ermənistana sanksiya tətbiq etsinlər. Yəni Ermənistan terrorçu ölkədir, terroru təşviq edən ölkədir. Ona görə belə kəşfiyyat məlumatları var. Eyni zamanda Rusiyanın xarici kəşfiyyat idarəsinin açıqlamasında da bu, deyilmişdi. Amma nədənsə o açıqlama heç bir mətbuatda yer almadı. Həmin açıqlamada deyildi ki, Azərbaycanda əcnəbi adamlar vuruşur. Eyni açıqlamada Ermənistanın adı çəkilməsə də, PKK-nın da döyüşdüyü bildirilib. Aydındır ki, PKK Azərbaycanda ola bilməz. Amma niyə Qərb mətbuatında bu barədə bir kəlmə də yoxdur? Örtbasdır etmək istəyirlər, diqqətdən kənarda saxlamaq istəyirlər. Amma bütün bu torpaqlarda Azərbaycan bayrağı dalğalanandan sonra orada bir dənə də terrorçu sağ-salamat qala bilməz.

**- Cənab Prezident, indi enerji ilə bağlı təhlükəsizlik məsələsi müzakirə olunur. Ermənistan TANAP, ya da Türkiyəyə gedən boru xətlərini hədəfə alan hücumlar etdi. Bunun təhlükəsizliyini necə təmin edəcəksiniz? Avropada enerjiyə ehtiyac var, avropalı dostlar buna necə baxırlar?**

- Onlar bir qədər narahatdır. Amma biz təbii ki, bunu nəzərə alırıq. Çünki Ermənistandan hər şey gözləmək olar. Elə Tovuz bölgəsində iyul ayında baş vermiş toqquşmaların səbəblərindən biri də o idi. O boru xəttinə yaxınlaşmaq, ya da ki, onu nəzarət altına almaq. Məhz elə ona görə onlar bizim ərazimizə girib yeni torpaqlar işğal etmək istəyirdilər. Ancaq bunun acı nəticəsini yaşadılar. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan istismara veriləndən bu günə qədər boru xətlərinin təhlükəsizliyi ilə bağlı Azərbaycan ərazisində bir dənə də problem olmamışdır, bir dənə də, nə texniki problem, nə də ki, hansısa bir təxribat. Çünki Azərbaycan ərazisində bizim kifayət qədər inkişaf etmiş müdafiə sistemimiz var. Monitorinq aparılır, fiziki müdafiə və elektron vasitələrlə. Boru xəttinin yerin altında, dərində yerləşməsi, təbii ki, bunu havadan da müəyyən dərəcədə mühafizə edir. Ancaq əgər Ermənistan bu çirkin planları, yəni, boru xətlərinin sıradan çıxarılması planlarını həyata keçirərsə, onlar üçün cavab çox ağır olacaq. Biz bu barədə artıq xəbərdarlıq etmişik. Hesab edirəm ki, gələn il TANAP-dan qaz alacaq Avropa ölkələri də onları xəbərdar etməlidir. Çünki TANAP təkcə bizim layihəmiz deyil. TANAP-ın başqa səhmdarları var, TAP-ın Avropa səhmdarları var. Bu, Avropanın enerji təhlükəsizliyi üçün müstəsna əhəmiyyət daşıyan bir layihədir. Ona görə hamımız maraqlı olmalıyıq ki, bu layihəyə hər hansı bir ziyan dəyməsin.

**- Cənab Prezidentim, daha bir sual vermək istəyirəm. İndi Paşinyan özünü itirib, təkcə özünü deyil, eyni zamanda Ermənistan xalqını da təhlükəyə atıb. Ermənistanda yaşayan 3 milyon insan təhlükə altındadır. Avropadakı ermənilərdən, ya da oradakı iş adamlarından vasitəçi olan, deyən ki, erməni xalqının günahı yoxdur, bu, dəlidir, bununla bağlı bir telefon zəngi, danışmaq istəyən olubmu?**

- Xeyr, bununla bağlı bizə heç bir telefon zəngi olmamışdır, heç bir mesaj göndərilməmişdir. Ancaq bu, gözlənilən idi. Bilirsiniz, hər bir rəhbər, hər bir idarəçi təcrübəyə malik olmalıdır. Biliklər öz yerində, təcrübə, idarəetmə təcrübəsi. İndi bəzi ölkələrdə hakimiyyətə gəlmiş insanların heç bir təcrübəsi yoxdur. O, heç kiçik bir kolxoza da başçılıq etməmişdir. Heç kiçik bir firmaya, dükana da başçılıq etməmişdir. Onun tabeliyində bəlkə heç beş nəfər də olmayıb. Sən ölkəni necə idarə edə bilərsən? Ölkəni idarə etmək çətin məsələdir, xüsusilə bizim bölgəmizdə. Oturuşmuş Avropa ölkələrində bu o qədər də çətin məsələ deyil. Çünki ölkələr var ki, heç bilmirlər onun başçısı kimdir. Heç insanları maraqlandırmır, onlar öz həyatını yaşayır, sistem oturuşub, hər şey artıq sistem altındadır. Amma bizim bölgəmizdə ölkəni idarə edən insandan çox şey asılıdır - insanların həyatı, təhlükəsizliyi, rifahı, beynəlxalq imici. Paşinyan küçədən gələn bir adamdır. Kim idi o? Heç kim. Bir yazar idi, heç yazar da deyil, bir qəzetin müxbiri idi. Küçədən gəldi rəhbər oldu. Nə etdi ondan sonra? Ermənistanı fəlakətə aparır. Baxın, Ermənistanda bu gün diktatura tam hökm sürür. İki keçmiş prezidentin hər birinə cinayət işi açıldı. Biri iki ilə yaxın həbsdə oturdu, sonra onu buraxdı, amma cinayət işi qalır. O birisinə də ölkə xaricinə çıxma qadağası qoyulub. Bu toqquşmalardan iki gün öncə əsas müxalifət partiyasının sədrini həbsə atdı. Ondan sonra Konstitusiya Məhkəməsini darmadağın etdi, qovdu. Konstitusiya Məhkəməsinin sədrini şantaj etdi, həbslə hədələdi və zorla öz adamlarını oraya yerləşdirdi. Jurnalistləri, media nümayəndələrini həbslərdə çürüdür. Biri aclıq elan etdi və orada öldü. Beynəlxalq müstəvidə, ənənəvi müttəfiqlərlə problem yaşandı. Rusiya ilə, Belarus ilə, digər ənənəvi müttəfiqlərlə problem yaratdı. İndi Paşinyanın ən çox ümid bəslədiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatıdır. Rusca buna ODKB deyirlər. ODKB-nin Nizamnaməsində yazılıb ki, əgər hər hansı bir ölkəyə xaricdən hücum olarsa, digər ölkələr bunun gərək canını qurtarsın. Amma ODKB-nin baş katibi erməni idi, keçmiş rejimin adamı idi. Onu həbsə atdı. Yəni o təşkilatı da təhqir etdi. Nə qədər belə şeylər etdi. Artıq hər kəs bilir ki, Paşinyan Sorosun bir məhsuludur. Bu, Soros tərəfindən idarə olunan bir adamdır. Postsovet məkanında baş vermiş çevrilişlər, “inqilablar” bir mənbədən qaynaqlanır. Soros artıq ümumi bir anlayış oldu. Mən tək onu nəzərdə tutmuram. Budur, Paşinyanın da Sorosla şəklini internetdə axtarın. Durublar qol-qola, bədənləri də bir-birinə yapışıb. Çox eybəcər bir fotoşəkildir. Odur onun atası. Ona görə Soros onu idarə edir. Ermənistanda baş vermiş bu hadisələr Sorosun növbəti məğlubiyyətidir.

2005-ci ildə onlar Azərbaycanda bunu etmək istədilər - narıncı inqilab. Amma mən durdum onların qabağında, əzdim onları, qovdum buradan, sonra Soros fondlarını da bağlatdım. Digər qeyri-hökumət təşkilatlarını da buradan rədd etdim. Dedim ki, biz özümüz bilərik. Gedin, başqa yerdə inqilab edin. Amma onlar Ermənistanda oturuşdu, qeyri-hökumət təşkilatları vasitəsilə oraya pullar gətirildi, insanlar yetişdirildi. Bu gün Paşinyan komandasının 90 faizi Soros, “Transparency International”, “Amnesty International”, “Human Rights Watch” və bu kimi çirkin təşkilatların nümayəndələridir. Ona görə mən bu yaxınlarda rus kanallarının birinə müsahibə verəndə dedim ki, bu gün bizim məqsədimiz Paşinyana problem yaratmaq deyil. O, nə qədər çox qalsa, bizim üçün o qədər də yaxşıdır. Yəni başa düşürsünüz nəyə görə.

**- Cənab Prezident, sonuncu sual. Əslində, planımda yox idi, amma bunu da soruşmaq istəyirəm. Bundan sonrası necə davam edəcək? Türkiyədən çox ciddi ictimai dəstək var, yəni ictimaiyyət deyərkən, insanlar, hər kəs Sizin çıxışlarınızı izləyir və dəstək verir. Amma 15 gündür mən Azərbaycandayam, Bərdədə, Mingəçevirdə, Gəncədəyəm. İnsanların Sizə möhtəşəm dəstəyi var. Getdiyimiz hər yerdə evi dağılan insanlardan soruşuram, “Eybi yox, evim dağılsın, evim, avtomobilim yansın, vacib deyil, amma Qarabağ alınsın” deyirlər. Möhtəşəm bir dəstək var. Bunu hər bir insandan soruşduğumuz zaman görürük. Burada ən böyük dəstək də Sizə var. Müxalifətdən də var, iqtidardan da var. Bundan sonrakı proses necə davam edəcək? Necə bir proses gözləyirsiniz? Sizcə, bu proses nə qədər davam edər? Siz təcrübəli bir atanın oğlusunuz. Qafqazın və bu bölgənin ən təcrübəli siyasi xadimi Heydər Əliyevin oğlusunuz. Qarabağ, Türkiyə və bu bölgə ilə əlaqədar Sizə söylədiyi və yadınızda qalan bir cümlə, bir fikir varmı?**

- Bilirsiniz, evləri dağılmış insanların problemlərini biz həll edərik. Onlar heç narahat olmasınlar. Özü də qısa müddət ərzində. Yadımdadır, 2016-cı ilin aprel ayında Ermənistan bizə hücum edəndə bizdə təqribən 1000-dən çox ev dağılmışdı və mən o evlərin sahibləri ilə görüşlər əsnasında demişdim ki, narahat olmayın, biz bütün bu evləri bərpa edəcəyik. Ondan təqribən 8 ay sonra yenə onların yanına, Ağdam və digər cəbhəyanı bölgələrə getdim, evlərinin açarlarını onlara təqdim etdim.

İlyarım əvvəl Şamaxı şəhərində zəlzələ oldu, minlərlə ev dağıldı. Getdim oraya dedim ki, narahat olmayın, bütün evlər bərpa ediləcək. Onu da etdik. Bir neçə ev qalıb, onları da bərpa edəcəyik. Bizdə təqribən 10 il bundan əvvəl daşqın oldu, böyük bir ərazi su altında qaldı. Təxminən 5 mindən çox ev uçub dağılmışdı. Hamısı dövlət tərəfindən bərpa edildi. Mənim yanaşmam belədir ki, əgər sənin 100 kvadratmetrlik evin var idisə, sən 120-150 kvadratmetrlik ev alacaqsan. Əgər sənin evin daxma idisə, sən gözəl təmirli yeni ev alacaqsan. Ona görə mülkiyyətini, evlərini itirmiş insanlara yardım ediləcək. Ondan başqa, bizim kəndlərdə bir çoxları ev heyvanlarını da itirdilər. Bu, onlar üçün qazanc mənbəyidir. Mən artıq tapşırıq verdim, hesablamalar aparılır, kim nə qədər ev heyvanı itirib o da veriləcək. Biz bu məsələni mütləq həll edəcəyik və Azərbaycan xalqı da bilir ki, o, hansısa sığorta şirkətinə gedib müraciət etməyəcək, onu get-gələ salmayacaqlar, hansısa məmur ona problem yaratmayacaq, çünki bu, mənim şəxsi nəzarətimdədir. Bunu hər kəs bilir və mənim tapşırıqlarımı yerinə yetirəcəklər.

Bu hadisə Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu bir daha göstərir. Deyir ki, evim də batsın, malım da batsın, təki Qarabağ alınsın və biz hamımız bu amalla yaşayırıq, hamımız. Biz bu nisgili, bu həsrəti 30 ildir yaşayırıq, 30 il. Buna son qoyulmalı idi, yoxsa yox? Buna son qoyuruq və qoyacağıq.

Ona görə bu məsələ ilə bağlı indiki mərhələdə yalnız irəli getməliyik. Biz Ermənistana şans verdik. Biz bu atəşkəsə razı olmaya da bilərdik. Deyərdik ki, biz razı deyilik. Kim bizi məcbur edə bilərdi?! Heç kim. Biz bunu etdik ki, bu tərəfdən də, o tərəfdən də insanlar ölməsinlər. Onlar da yazıqdırlar. Onları da qovurlar. İndi bizim Müdafiə Nazirliyi videokadrlar yayıb, zəncirlə bağlayırlar erməni əsgərlərini, zəncirlə, dəmirə bağlayırlar, bir-birinin ayağına bağlayırlar ki, qaçmasınlar. Neçə dənə belə meyit çıxdı. Dəhşətdir, bunlar adam deyil. Bir də son günlərdə erməni əsgərlərinin arxasınca cəza taborları gəlir. Əgər kimsə geri qaçarsa, o, orada vurulur, yəni belə vəhşilik, belə faşizm.

Biz bu nisgillə yaşadığımız üçün istəyirik ki, oraya qayıdaq, ancaq sülh yolu ilə. Ona görə Ermənistana şans verdik, atəşkəsi qoru, onu pozma, masa arxasına otur, bu məsələni həll et, torpaqlarımızı bizə ver. Sənin torpağın bizə lazım deyil. Bizim Ermənistan torpağında gözümüz yoxdur. Sizə də söylədim, oradakı ermənilər harada yaşayıblar, orada da yaşayacaqlar, bizim onlarla heç bir problemimiz yoxdur. Yəni bu mərhələ üçün bizim siyasətimiz bundan ibarətdir sona qədər.

O ki qaldı, artıq müharibə başa çatandan sonra, əlbəttə ki, nəinki bölgə, dünya dəyişəcək. Artıq dəyişir. Hər kəs bizim gücümüzü gördü. Bizimlə hesablaşmaq səviyyəsi daha da artacaq. Onsuz da müəyyən regional məsələlərdə Azərbaycanın rolu çox önəmlidir, o, daha da artacaq. Təbii ki, Türkiyə-Azərbaycan birliyi daha da möhkəm olacaq. Bu da həm Türkiyə, həm Azərbaycan üçün həyati əhəmiyyət, önəm daşıyır. Türkiyə-Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir. Çünki bizim niyyətimiz öz maraqlarımızı təmin etməkdir.

Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu. Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik. Qoy, bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq.

**- Cənab Prezident, çox təşəkkür edirəm. Sıx iş rejimində, xüsusilə bir tərəfdən, cəbhədən xəbərlər gəlir, bir tərəfdən də diplomatik proseslər içərisindəsiniz. Amma, təbii ki, Sizinlə söhbət edərkən, bu reportaj əsnasında gördüm ki, Siz, əslində, Ermənistan ictimaiyyətinin daxilində danışılanları da çox yaxşı izləyirsiniz. Bizə vaxt ayırdığınız üçün “Haber Türk” adından çox təşəkkür edirəm, cənab Prezident.**

- Sağ olun. Mən təşəkkür edirəm. Çox sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Ölkənizin üzləşdiyi çətin vəziyyət və ərazi münaqişəsi bütün dünya ictimaiyyəti ilə yanaşı, biz yazıçı və şairləri də narahat edir. Lakin Sizin dərin zəkanız, mükəmməl diplomatik fəaliyyətiniz və xalqınıza olan sevginiz bizim hər birimizi qarşıdakı parlaq günlərə və xoşbəxt gələcəyə ümidləndirir.

Biz - yazıçı və şairlər, əslində, bütün müharibələrin əleyhinəyik, ancaq Sizin vəziyyətiniz bizim hər birimizi düşünməyə vadar edir. Siz başqa ölkənin torpaqları üçün döyüşmürsünüz. Siz ölkənizdə öz torpaqlarınız uğrunda vuruşursunuz.

Dünya siyasətçilərinin bildirdiyinə görə, artıq başqa çıxış yolu qalmayıbmış. Bu vəziyyət bizi inandırır ki, Azərbaycanın və onun xalqının gələcəyi üçün hərəkətə keçmək vaxtıdır.

Azərbaycan dünyaya bir çox uzaqgörən və müdrik insanlar bəxş edib. Ölkəniz xalqınızın mehribanlığı və qonaqpərvərliyi ilə məşhurdur. Biz əminik ki, həmin insanlar öz səbir və şəfqəti ilə nümunə olacaqlar.

Sizi və mehriban xalqınızı ürəkdən dəstəkləyirik.

*Dərin hörmətlə,*

**Biplab Majee -** Hindistandan şair, ədəbi tənqidçi
**Gjeke Marinaj -** ABŞ-dan Alban-Amerikan Yazarlar Cəmiyyətinin ilk prezidenti
**Xosiyat Rustam -** Özbəkistandan şair, tərcüməçi
**Rosailba Fantastiko Di Kastron -** İtaliyadan teatr tamaşalarının səhnələşdirilməsi üzrə beynəlxalq mütəxəssis
**Vadim Teryoxin -** Rusiyadan Rusiya Yazıçılar Birliyinin həmsədri
**Mai Van Phan -** Vyetnamdan Vyetnam Yazarlar Birliyinin üzvü
**Sovan Bhattaçarya -** Hindistandan şair, yazıçı, beynəlxalq müsabiqələr laureatı
**Daniela Andonovska -** Trajkovska - Makedoniyadan “St. Kliment Ohridski” Universitetinin dosenti
**Mehmet Nuri Parmaksız -** Türkiyədən Elmi-Ədəbi Əsər Müəllifləri Birliyinin baş direktoru
**Sungrye Han -** Koreya Respublikasından şair, tərcüməçi, dosent
**Coskun Karabulut -** Türkiyədən şair, yazıçı
**Rudolf Marku -** Böyük Britaniyadan şair
**Karlos Ernesto Qarsiya -** İspaniyadan şair, yazıçı və jurnalist
**Con Farndon -** Böyük Britaniyadan Avrasiya Yaradıcılıq Gildiyasının sədri, şair

Hörmətli cənab Prezident!

Ermənistan ilə Azərbaycan arasında gərginliyin artmasını, Gəncə şəhərinin və Dağlıq Qarabağın digər ətraf ərazilərinin atəşə tutulmasını, insanların, o cümlədən uşaqların həlak olmasına gətirib çıxaran son qarşıdurmanı həyəcanla izləyirəm.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi insanların həlak olması ilə əlaqədar Sizə başsağlığı verir və yaranmış vəziyyətdən dərin narahatlığımı ifadə edirəm.

Hamı beynəlxalq hüquqa, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə hörmət etməlidir.

Ehtiyac yaranarsa və faydalı olarsa, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri münaqişənin sülh yolu ilə dayanıqlı həlli üçün öz təcrübələrindən istifadə edərək kömək göstərməyə hazırdırlar.

Məhz bu cür vəziyyətlərdə bütün səviyyələrdə dialoqun aparılmasına ehtiyac var. Bu işdə Sizə dəstək verməyə hazırıq.

Məmnuniyyətlə İtaliya qəzetində Sizin məxsusi müsahibənizi görmək istərdim.

Cənab Prezident, xahiş edirəm Sizə yüksək hörmət və ehtiramımızı qəbul edin.

*Hörmətlə,*

***Franko FRATTİNİ,***
***İtaliyanın sabiq Xarici İşlər naziri***

Zati-aliləri!

Hazırda Dağlıq-Qarabağdakı vəziyyəti böyük narahatlıqla izləyirik.

Biz həlak olanlarla əlaqədar Sizə başsağlığı verir və yaralıların tezliklə şəfa tapmasını diləyirik. Akademiklər olaraq düşünürük ki, BMT-nin 75-ci ildönümündə hər kəs təşkilatın Təhlükəsizlik Şurasının qətnamələrinə hörmət etməlidir.

Uzun illər ərzində biz tərəfdaşımız Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birgə dialoq, tolerantlıq və anlaşmanı təşviq etmək üçün çalışmışıq. Ümid edirik ki, ortaq dünyamız naminə bu işi bundan sonra da davam etdirəcəyik. İnanırıq ki, bizimlə eyni fikirdə olan insanları bir araya gətirməli və onları qorumalıyıq. Çünki onların müdrikliyinə və təcrübəsinə ehtiyacımız var.

Son səkkiz ildə Davamlılığa Keçid Klasteri çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə dünyanın üzləşdiyi ən aktual məsələləri təbliğ etmək üçün birgə çalışırıq.

*Hörmətlə,*

**Fibi Kunduri -** Afina İqtisadiyyat və Biznes Universitetinin professoru, Ətraf Mühit və Resurslar üzrə İqtisadçıların Avropa Assosiasiyasının prezidenti
**Lidiya Papadaki -** Birləşmiş Millətlər Təşkilatının Yunanıstandakı Davamlı İnkişaf Şəbəkəsinin meneceri
**Mariya Lentudi -** Davamlılığa Keçid üzrə Klaster Qrupunun kommunikasiya rəhbəri
**Akiles Vassilopulos -** İonnina Universitetinin dosenti
**Angelos Plataniotis -** Afina İqtisadiyyat və Biznes Universitetinin professoru, tədqiqatçı
**Angelos Alamanos -** tədqiqatçı
**Lidiya Stergiopolu -** Ətraf Mühit və İqtisadiyyat üzrə Tədqiqatlar Mərkəzinin tədqiqatçısı
**Aris Mussolides -** professor
**Sofiya Mantafuni -** Afina İqtisadiyyat və Biznes Universitetinin baş meneceri
**Panayiotis Sofronidis -** tədqiqatçı
**Kutsibu Eleni -** Ali Məhkəmədə vəkil, Afina Universitetinin Hüquq fakültəsində elmi işçi
**Pol Lentudis -** Patras Universitetinin professoru

## İlham Əliyevin ədalətli savaşı

*Əvvəli 1-ci səh.*

Bu əməliyyatlarda düşmənə sarsıdıcı zərbələr endirməklə torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusu öz qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Azərbaycanın Qarabağ cəbhəsində müasir döyüş imkanlarının tətbiqi ilə əldə etdiyi uğurlu nəticə inkişaf etmiş hərbi mərkəzlərin marağına səbəb olub.

### Milli maraqlar Prezident İlham Əliyev üçün ən ali dəyərdir

30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupunun həmsədrləri status-kvonu dəyişmək üçün heç nə etmədilər. Mövcud diplomatik və hərbi ətalət isə həm həmsədrləri, həm də Ermənistanı qane edirdi. Nəticədə Azərbaycan özü döyüş meydanında status-kvonu dəyişdi: Cəbrayıl, Füzuli və Tərtər rayonlarının yaşayış məntəqələri, strateji yüksəkliklər işğaldan azad edildi. Bu sırada Dağlıq Qarabağın inzibati ərazisinə daxil olan Hadrutun azad edilməsinin böyük geosiyasi əhəmiyyəti var.

Azərbaycan və dünya ictimaiyyətinin döyüşlərin getdiyi, qələbələrin qazanıldığı günlərdə şahidi olduqları ən mühüm həqiqətlərdən biri də Prezident, Ali Baş Komandan İlham Əliyevin ölkəmizin milli maraqlarını əzmlə müdafiə etməsi oldu. İlham Əliyev həmişə, o cümlədən Ermənistanın hərbi təxribatlarına qarşı başlanılan son əks-hücum əməliyyatlarının gedişində yenilməz siyasi iradə, qətiyyət, prinsipiallıq göstərdi, düşmən ölkənin havadarları olan dövlətlərin təzyiq cəhdlərinə baxmayaraq, Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə etdi. Bir daha sübut olundu ki, Azərbaycanın milli maraqları Prezident İlham Əliyev üçün ən ali dəyərdir.

Prezident İlham Əliyev siyasi uzaqgörənliyi, diplomatik peşəkarlığı ilə Ermənistana və erməni lobbisinə informasiya müharibəsində də ciddi zərbələr vurdu. “CNN International”, “CNN-Türk”, “Sky News”, “Euronews”, “Əl-Cəzirə”, “Əl-Ərəbiyə” kimi dünyanın əsas televiziya kanallarına, o cümlədən Türkiyənin nüfuzlu “TRT Haber”, Rusiyanın aparıcı “Rossiya-1”, “Pervıy Kanal”, RBK televiziya kanallarına müsahibələrində Azərbaycana qarşı həyata keçirilən saxta təbliğatı, yalan informasiyaları ifşa etdi.

### Qələbə bizimdir, Qarabağ Azərbaycandır!

Bütövlükdə, bütün cəbhələrdə başından zərbə alan işğalçı dövlət artıq əvvəlki hərbi ritorikasından və şərtlərindən əl çəkib. Yerevan etiraf edir ki, bu münaqişədə tərəf olan Dağlıq Qarabağdakı qondarma rejim deyil, məhz Ermənistan dövlətidir. Bu ölkənin baş naziri artıq şərtlər irəli sürməkdən uzaqdır və həm də ona diktə edilən tələbləri qəbul etmək məcburiyyətindədir. 4 il əvvəl, Aprel döyüşlərində uzun illərdən sonra Ermənistan öz layiqli cəzasını almışdı. Son döyüşlər isə miqyasına görə böyük əməliyyat olaraq Ermənistan ordusunun və cəmiyyətinin özünə güvənini əsaslı dərəcədə sarsıtdı. Ermənistanda hər kəs gördü ki, ordunun yüksək döyüş ruhuna malik olması ilə bağlı illərdir deyilənlər yalan və saxtakarlıq üzərində qurulmuş təbliğatdan başqa bir şey deyil. Çünki işğalçı əsgərlər Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyərək ilk anda məhv edildilər, sağ qalanlar isə geriyə baxmadan qaçdılar, it kimi qovuldular.

**“Status-kvo yoxdur, təmas xətti yoxdur. Ermənilərin öz orduları haqqında uzun illər uydurduğu yenilməz ordu əfsanəsi yoxdur. Biz göstərdik kim kimdir. Ona görə bu reallıqlarla gərək həm Ermənistan hesablaşsın, onların havadarları hesablaşsın, bütün dünya hesablaşsın”,** - deyə Prezident İlham Əliyev mövcud vəziyyəti şərh edərkən bildirib.

Bütün dünya xalqımızın torpaqlarımızı azad etmək üçün döyüş əzmini gördü. Bu günlərdə hər bir azərbaycanlı Ali Baş Komandan İlham Əliyevin ətrafında daha sıx səfərbər oldu. Vəzifəsindən, statusundan, əqidəsindən asılı olmayaraq, hər kəs milli həmrəylik nümayiş etdirdi. İnformasiya məkanında, sosial şəbəkələrdə işğalçı Ermənistana və onun təbliğatına qarşı güclü cəbhə açıldı. Əsgərlərimizin mübarizliyi, yeni qəhrəmanlıq salnamələri yazmaları cəmiyyətimizə yüksək mənəvi ruh verdi. Ona görə Azərbaycanı və onun xalqını məğlub etmək mümkün deyil. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Prezident Administrasiyası ilə Milli Məclisin deputatları arasında növbəti görüş keçirilib

**Qanunverici hakimiyyət ilə icra hakimiyyəti arasında əlaqələrin daha da təkmilləşdirilməsi istiqamətində müzakirələrin aparılması üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə Milli Məclisin deputatları arasında görüşlər davam etdirilir. Bu qəbildən olan növbəti görüş oktyabrın 14-də videokonfrans formatında keçirilib.**







Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Milli Məclisin 70-dək deputatı iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, hazırda Azərbaycan tarixi günlər yaşayır. Xalqımız və dövlətimiz, sözün həqiqi mənasında, Vətən müharibəsi aparır. Ölkəmiz bu müharibədə uğurlu hərbi əməliyyatlarla yanaşı, diplomatik, siyasi və informasiya cəbhəsində də mühüm uğurlar qazanmaqdadır. Spiker vurğulayıb ki, Prezident İlham Əliyevin zəngin siyasi təcrübəsi, yüksək diplomatik səriştəsi və qətiyyəti sayəsində Azərbaycan düşmənə bütün cəbhələrdə böyük məğlubiyyətlər yaşadır. Sahibə Qafarovanın sözlərinə görə, Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatların qarşısının alınması, şanlı Ordumuzun parlaq əks-hücum əməliyyatları hər birimizi fərəhləndirir, qürurlandırır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və dövlətimizin yeni şanlı tarixi yazılır. Ordumuzun zəfər yürüşü zamanı şəhidlərimizin də olduğunu vurğulayan Spiker Allahdan şəhidlərimizə rəhmət, yaralılara şəfa diləyib.

Milli Məclisin Ermənistanın 27 sentyabrdan başlayaraq törətdiyi hərbi təxribatlar, həmçinin Gəncəni və digər şəhər və rayonlarımızı artilleriya və raketlərdən atəşə tutması ilə bağlı milli parlamentlərə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanladığını bildirən Sahibə Qafarova məlumat verib ki, parlament rəhbərliyinin və dostluq qruplarının adından 88 ölkənin parlamentlərinə 130, həmçinin 11 beynəlxalq təşkilata məktublar göndərilib. Müraciətlərdə baş verənlərlə bağlı geniş məlumatlar verilib və beynəlxalq ictimaiyyət tərəfindən bu hadisələrə adekvat münasibətin bildirilməsinə çağırış olunub. Onun sözlərinə görə, artıq bəzi ölkələrin parlamentləri ölkəmizə öz dəstəklərini ifadə ediblər. Həmçinin Sahibə Qafarova bu müddət ərzində bir sıra ölkələrin spikerləri və beynəlxalq təşkilatların rəhbərləri ilə telefon danışıqları apardığını, 10-a yaxın ölkənin səfirləri ilə görüşlər keçirdiyini, onlara Ermənistanın təcavüzü və təxribatları haqqında ətraflı məlumat verildiyini diqqətə çatdırıb.

Sədr bu müddətdə Milli Məclisin əksər deputatlarının müxtəlif xarici ölkələrin media orqanlarında erməni vandalizminin ifşa olunması istiqamətində çıxışlar etməsinin, sosial şəbəkələrdə xüsusi fəallıq nümayiş etdirməsinin təqdirəlayiq olduğunu bildirib. Həmçinin məlumat verilib ki, Milli Məclisin Sədri, Sədr müavinləri, deputatlar, parlament Aparatının və İşlər idarəsinin kollektivləri Silahlı Qüvvələrə Yardım Fonduna 360 min manat ianə ediblər.

Çıxışında daha sonra ölkəmizdə həyata keçirilən siyasi islahatlar və onların uğurlu nəticələri barədə məlumat verən Spiker qeyd edib ki, Azərbaycanın dinamik inkişafını şərtləndirən mühüm məsələlərdən biri ardıcıl həyata keçirilən islahatlardır. Bu islahatlar ölkəmizin daha da güclənməsinə xidmət edir. "Əlbəttə ki, hər bir inkişaf və tərəqqinin əsasında uğurlu islahatlar dayanır və biz Azərbaycanın müsbət nümunəsində bunu aydın şəkildə görürük", - deyən Sahibə Qafarova qeyd edib ki, ölkəmizdə həyata keçirilən islahatların mühüm bir hissəsini siyasi islahatlar təşkil edir. Bu islahatlar demokratikləşmə prosesinin daha uğurlu həyata keçirilməsini təmin edir, eyni zamanda siyasi münasibətlər sistemində yeni keyfiyyət göstəricilərinin meydana gəlməsini şərtləndirir. O bildirib ki, bu gün Azərbaycanda siyasi sistemin komponentləri arasında müsbət münasibətlər qurulub.

Sonra Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev çıxış edib. O, dövlət başçısı tərəfindən aparılan siyasi-hüquqi islahatlar və onların nəticələrindən danışaraq, ölkədə yeni siyasi konfiqurasiya, qabaqcıl siyasi mədəniyyət və dialoq mühitinin formalaşdığını, qısa müddət ərzində faktiki fəaliyyətdə olan 52 partiyadan 51-i ilə görüş keçirildiyini, 2011-ci ildən sonra ilk dəfə 6 siyasi partiyanın dövlət qeydiyyatına alındığını, 11 siyasi partiyanın qurultaylarının keçirildiyini və nəticələrinin dövlət qeydiyyatına alınmaqla fəaliyyətlərinə legitimlik gətirildiyini bildirib. Şöbə müdiri dövlətçiliyin təməl prinsipləri ətrafında milli vəhdətin dərinləşməsi kimi məsələlərə toxunaraq, siyasi partiyaların ərazi bütövlüyümüzün bərpası üçün mübarizədə həmrəylik nümayiş etdirməsini və 32 illik fəaliyyət tarixində ilk dəfə olaraq 51 partiyanın vahid mövqe ilə Ali Baş Komandanı birmənalı dəstəkləmələrini və onun atdığı addımları müdafiə etmələrini, habelə bu partiyalar tərəfindən beynəlxalq təşkilatlara ünvanlanmış Azərbaycanın haqq səsini əks etdirən birgə müraciətləri xüsusi vurğulayıb.

Ədalət Vəliyev VI çağırış Milli Məclisin formalaşmasında və ötən müddət ərzində həyata keçirdiyi fəaliyyətdə nəzərəçarpan mütərəqqi yenilikləri qeyd edərək, qanunverici orqanda sağlam, demokratik mühit yarandığını, dövlət əhəmiyyətli məsələlərə vaxtında reaksiya verildiyini, parlamentin nüfuzunun həm ölkədə, həm də xaricdə yüksəldiyini bildirib.

Şöbə müdiri həmçinin qanunverici orqanın fəaliyyətinin icra hakimiyyəti ilə qarşılıqlı əlaqələndirilməsinin daha da təkmilləşdirilməsi istiqamətində görülmüş işlər barədə danışaraq, indiyədək Milli Məclisin rəhbərliyi və deputatları ilə, o cümlədən parlamentdə təmsil olunan siyasi partiya nümayəndələri ilə müxtəlif formatlarda həm qrup, həm də fərdi görüşlər keçirildiyini, əməkdaşlıq perspektivlərinin müzakirə olunduğunu qeyd edib. Ədalət Vəliyev deputatları seçiciləri ilə işin yüksək səviyyədə təşkili üçün icra hakimiyyəti orqanlarına verilmiş aidiyyəti tapşırıqlar barədə məlumatlandıraraq, dövlət başçısının göstərişinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri ilə keçirilən görüşlərdə, habelə yerli icra hakimiyyəti başçılarını qəbul edərkən bu məsələləri xüsusi diqqətə çatdırdığını, deputat müraciətlərinin vaxtında və hərtərəfli cavablandırılmasının təmin edilməsi məqsədilə 154 dövlət orqanında (qurumunda) rəhbər müavini səviyyəsində əlaqələndirici şəxslərin müəyyən edildiyini bildirib. Eyni zamanda vətəndaş məmnunluğunun daha da yüksəldilməsi üçün deputatlara dair mövcud gözləntilər diqqətə çatdırılıb.

Prezident İlham Əliyevin Azərbaycan xalqına 4 oktyabr və 9 oktyabr tarixlərində etdiyi müraciətlərin ölkənin müqəddəratının inamlı əllərdə olduğunu bir daha sübut etdiyini, Vətənini sevən hər bir azərbaycanlıya qürur və iftixar hissi yaşatdığını qeyd edən şöbə müdiri Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qətiyyətli döyüşlər apardığı bu günlərdə hər kəsin yüksək ruh yüksəkliyi və vətənpərvərlik nümayiş etdirərək Ordumuza, Ali Baş Komandana dəstək vermək niyyətində olduğunu deyib. O, həmçinin Birinci vitse-prezident xanım Mehriban Əliyevanın istər pandemiya ilə mübarizə, istərsə də Ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin, çağırışlarının və bəyanatlarının milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfə verdiyini bildirib.

Daha sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, deputatlar - Vahid Əhmədov, Azay Quliyev, Rüfət Quliyev, Aqiyə Naxçıvanlı, Elman Nəsirov, Aqil Abbas, Azər Badamov və Nəsib Məhəməliyev çıxış ediblər. Çıxışlarda ölkə Prezidenti tərəfindən aparılan çoxşaxəli islahatların gətirdiyi müsbət nəticələr, Milli Məclisin bu islahatlar prosesində iştirakı və verə biləcəyi töhfələr, eləcə də parlamentin icra hakimiyyəti orqanları ilə daha sıx əməkdaşlıq qurması perspektivləri müzakirə edilib, aidiyyəti təkliflər səsləndirilib. Deputatlar həmçinin Ali Baş Komandanın atdığı hər bir addımı müdafiə etdiklərini, rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpa edildiyi bu şərəfli günlərdə bütün səylərini onun dəstəklənməsinə yönəltdiklərini, bu işi inamla davam etdirəcəklərini diqqətə çatdırıblar.

Tədbirin sonunda Ədalət Vəliyev çıxışlar zamanı səsləndirilən bütün təkliflərin diqqətlə öyrəniləcəyini və Milli Məclis rəhbərliyi ilə ətraflı müzakirə ediləcəyini bildirib. O, həmçinin bütün cəmiyyətimizdə olduğu kimi, Milli Məclisdə də hökm sürən yüksək ruh yüksəkliyinin, Ali Baş Komandana olan sonsuz etimadın və həmrəyliyin Böyük Qələbəyə nail olmağımız yolunda əhəmiyyətini vurğulayaraq, işğal edilmiş bütün torpaqlarımızın Prezident İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad olunacağına, həmin ərazilərdə bütün mədəni-mənəvi sərvətlərimizin bərpa ediləcəyinə, yeni həyat qurulacağına əminliyini ifadə edib.

## Nazirlər Kabineti xarici tərəfdaşları Ermənistanın Azərbaycana qarşı təxribatları barədə məlumatlandırır

Azərbaycan Respublikası ilə xarici ölkələr arasında hökumətlərarası komissiyaların qarşı tərəflərdən həmsədrləri Ermənistanın Azərbaycana qarşı son təxribatları, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərin həlak olması və yaralanması barədə məlumatlandırılır.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

## *Əli ƏHMƏDOV:* "Çoxdan gözlədiyimiz qələbənin nəfəsi artıq çox aydın hiss olunur"



"Qəhrəman Azərbaycan Ordusu növbəti şanlı qələbəsi ilə xalqımıza yenə də sevinc və fərəh hissləri bəxş etdi".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib.

"Füzuli və Xocavənd rayonlarının azad edilən 8 kəndi böyük qələbəni əhəmiyyətli dərəcədə bizə yaxınlaşdırır. Çoxdan gözlədiyimiz qələbənin nəfəsi artıq çox aydın hiss olunur. Rəşadətli Azərbaycan Ordusu, qəhrəman əsgərimiz və müdrik Ali Baş Komandanımız ölkəmizin həyatında ən şərəfli tarixi yazırlar. Tarix isə onların adını qızıl hərflərlə öz səhifələrinə yazır. Eşq olsun Azərbaycan Ordusuna və Ali Baş Komandanımıza! Qarabağ Azərbaycandır!", - deyə Baş Nazirin müavini qeyd edib.

## Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirləri arasında telefon danışığı olub

Oktyabrın 14-də Azərbaycanın Xarici İşlər nazirinin təşəbbüsü ilə Ceyhun Bayramov və Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov rusiyalı həmkarına regionda son gərginliklə bağlı məlumat verib. O, oktyabrın 14-ü gecə saat 1-də və daha sonra səhər saat 8-də Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş Kəlbəcər rayonu ilə sərhəd olan ərazidə öz raket sistemlərinin Azərbaycan ərazisini atəşə tutmaq məqsədilə hazırlıq vəziyyətinə gətirildiyi və Azərbaycan Silahlı Qüvvələrinin legitim hədəf kimi bu raket sistemlərini hazırlıq vəziyyətində məhv etdiyi Sergey Lavrovun diqqətinə çatdırılıb.

Nazir Azərbaycan Silahlı Qüvvələrinin özünümüdafiə hüququ çərçivəsində və öz mülki əhalisini müdafiə etmək məqsədilə, eləcə də mülki əhaliyə, Gəncə və Mingəçevir şəhərləri daxil olmaqla, mühüm əhəmiyyət kəsb edən infrastruktura Ermənistan tərəfindən həyata keçirilmiş sonuncu raket hücumu nəzərə alınaraq hərəkət etdiyini vurğulayıb. Beləliklə, növbəti insan faciəsinin qarşısı alınıb və çox sayda azərbaycanlı mülki şəxsin həyatı xilas edilib.

Nazir vəziyyətin gərginləşməsi ilə bağlı məsuliyyətin tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirib.

Xarici İşlər naziri Sergey Lavrov mülki şəxslərin tələfatı ilə bağlı öz ciddi narahatlığını ifadə edib. O, Moskva görüşü zamanı razılaşdırılmış humanitar atəşkəsə riayət edilməsinin vacibliyini vurğulayıb.

## Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışı keçirilib

Oktyabrın 14-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 104 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini bildirərək Azərbaycan Prezidenti İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb.

General-polkovnik Vilayət Eyvazov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayaraq daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərilərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

## Yaponiyanın ölkəmizdəki səfiri Ermənistanın son təxribatları haqqında məlumatlandırılıb

Oktyabrın 14-də Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri Mədət Quliyev Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Cuniçi Vada ilə görüşüb. Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Yaponiya arasındakı əməkdaşlıq münasibətləri ilə bağlı fikir mübadiləsi aparılıb.

M.Quliyev səfir Cuniçi Vadanı təyinatı münasibətilə təbrik edərək, onun iki ölkə arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə inandığını bildirib. Nazir Ermənistanın son təxribatları haqqında səfiri ətraflı məlumatlandırıb. Qeyd edib ki, Ermənistan tərəfindən Azərbaycanın mülki şəxsləri və infrastrukturu humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan sonra belə məqsədli şəkildə hədəfə alınır. Gəncə şəhəri ilə yanaşı, sənaye obyektlərinin və Cənubi Qafqazın ən böyük elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhəri və digər yaşayış məntəqələri ağır artilleriya, həmçinin raket atəşinə tutulur.

Mülki əhali arasında öldürülən və yaralanan şəxslər barədə qarşı tərəfə geniş məlumat verilərkən bildirilib ki, Ermənistanın hücumlarının qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınmaqdadır və hərb meydanında düşmənə yetərli cavab verilir.

Görüşdə habelə iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər məsələlər ətrafında müzakirələr aparılıb.

## Ermənistanın Gəncəyə hərbi təcavüzü ilə bağlı bir sıra beynəlxalq qurumlara və şəhərlərin rəhbərliklərinə müraciət ünvanlanıb

Ermənistanın hərbi-siyasi rəhbərliyinin Gəncədəki mülki obyekt və şəxslərə qarşı törətdiyi terror aktını dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən Avropa İdman Şəhərləri və Paytaxtları Federasiyasına, Avropa Gənclər Forumuna, müxtəlif illərdə Avropanın gənclər paytaxtları olmuş 12 şəhərin merlərinə, habelə Koreyanın Qvanqju şəhərinin rəhbərliyinə müraciət ünvanlanıb. AZƏRTAC müraciəti təqdim edir.

Gəncə şəhəri 4 oktyabr 2020-ci il tarixindən başlayaraq Ermənistan Silahlı Qüvvələri tərəfindən davamlı raket atəşinə tutulur. 11 oktyabr 2020-ci il tarixində saat 02:00 radələrində Ermənistan Silahlı Qüvvələri daha bir terror aktı törədiblər. Belə ki, hərbi əməliyyatlar zonasından xeyli kənarda yerləşən Gəncə Ermənistan ərazisindən "Skad-B" taktiki əməliyyat raket kompleksindən atılan taktiki ballistik raketlərlə yenidən atəşə tutulub. Nəticədə "Qələbə parkı"nın ətrafında yerləşən yaşayış binaları dağılıb, 5-i qadın olmaqla 10 nəfər həlak olub, 9-u uşaq, 10-u qadın olmaqla 34 nəfər yaralanıb. Ümumilikdə, 4 oktyabr 2020-ci il tarixindən indiyədək 11 mülki şəxs həlak olub, 70-dən çox dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 7 yaşayış binası tamamilə dağılıb, "Grand-Qafqaz" Ticarət Kompleksinə və 100-lərlə obyektə ciddi ziyan dəyib.

Oktyabrın 10-da Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Moskvada baş tutan görüşünün nəticəsi olaraq əldə edilmiş humanitar atəşkəs rejimi Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən kobudcasına pozulur. Erməni tərəfi humanitar atəşkəsin elə ilk dəqiqələrindən beynəlxalq humanitar hüququn öhdəliklərini pozaraq, məqsədyönlü şəkildə Azərbaycanın mülki əhalisini hədəf alır, raket və artilleriya atəşinə tutur.

Beləliklə, Ermənistanın Gəncəyə terror aktı nəticəsində 3 uşaq hər iki valideynini itirib. Gəncədə olan ölkə və yerli əhəmiyyətli tarixi abidələrə, dini məbədlərə, mədəniyyət obyektlərinə, habelə təhsil müəssisələrinə ciddi ziyan dəyib. Belə ki,1887-ci ildə inşa edilmiş Aleksandr Nevski Rus Pravoslav Kilsəsi, XIV əsrin İmamzadə Dini-Memarlıq Abidə Kompleksi, vaxtilə "Kişi gimnaziyası" kimi fəaliyyət göstərən, hazırda isə Azərbaycan Dövlət Aqrar Universitetinin istifadəsində olan yerli əhəmiyyətli tarixi abidə və "Nizami" kinoteatrı zərər görüb. 5 məktəb və 6 körpələr evi-uşaq bağçası, həmçinin Gəncə Musiqi Kollecinin binasına ciddi ziyan dəyib.

Müraciətdə o da qeyd olunub ki, bu cür müharibə cinayətləri və terror aktlarına beynəlxalq ictimaiyyət tərəfindən lazımi reaksiyanın olmaması, erməni tərəfinin cəzasız qalması Ermənistan silahlı qüvvələrini bu çirkin və qanunsuz əməlləri davam etdirməyə təşviq edəcək.

Bu hərəkət Ermənistanın humanitar atəşkəsə riayət etmədiyinin, hərbi təcavüz və Azərbaycan ərazilərinin qanunsuz işğalını davam etdirmək niyyətinin bariz təzahürüdür.

Biz Ermənistanı beynəlxalq hüququn normaları və prinsiplərinə, o cümlədən beynəlxalq humanitar qanunlar üzərindəki öhdəliklərinə tabe olmağa və BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərildiyi kimi, Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyri-şərtsiz çəkilməsinə dair tələbləri yerinə yetirməyə çağırırıq.

## Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsinin, Aleksandr Nevski Rus Pravoslav Kilsəsinin baş keşişinin və Gəncə Yəhudi Dini İcmasının birgə bəyanatı

Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov, Aleksandr Nevski Rus Pravoslav Kilsəsinin iereyi Varfolomey Denis Sotnikov və Gəncə Yəhudi Dini İcmasının sədr müavini Anar Məmmədov Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs rejimini kobudcasına pozaraq, cəbhə bölgəsindən xeyli aralıda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni raket atəşinə tutmasını kəskin şəkildə pisləyən birgə bəyanat yayıblar.

AZƏRTAC bəyanatın mətnini təqdim edir:

"Məlum olduğu kimi, Gəncə şəhəri 4 oktyabr 2020-ci il tarixindən başlayaraq davamlı şəkildə raket atəşinə tutulur. Bunun nəticəsində indiyədək 11 mülki şəxs həlak olub, 70-dən çox dinc sakin yaralanıb. 10 yaşayış binası tamamilə dağılıb, 100-lərlə obyektə ciddi ziyan dəyib. Ermənistanın Gəncəyə qarşı hərbi təcavüzü nəticəsində 3 uşaq hər iki valideynini itirib. Gəncədə olan ölkə və yerli əhəmiyyətli tarixi abidələr, mədəniyyət obyektləri, habelə təhsil müəssisələri ilə yanaşı, buradakı dini məbədlərə də ciddi ziyan dəyib. Belə ki, 1887-ci ildə inşa edilmiş Aleksandr Nevski Rus Pravoslav Kilsəsi, XIV əsrin İmamzadə Dini-Memarlıq Abidə Kompleksi də zərər görüb. Çoxmillətli və tolerant ölkə olan Azərbaycan burada yaşayan bütün millət və xalqların ümumi vətənidir. Öz taleyini, öz həyatını bu torpağa bağlayan, əsrlərdən bəri bu torpaqda yaşayan, müxtəlif millətlərdən olub, fərqli dinlərə etiqad edən insanlar - bütünlüklə hamısı azərbaycanlıdır.

Qeyd etmək lazımdır ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi ölkəmizdə yaşayan xalqların içərisinə dəfələrlə ədavət toxumu səpməyə, onlar arasında olan birlik və bərabərliyi pozmağa çalışsa da, buna nail ola bilməyib. Onların təxribatları, dinc əhaliyə qarşı törətdikləri hərbi cinayətlər, dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, bu torpaq uğrunda şəhidlik zirvəsinə ucalan həmvətənlərimiz aramızda olan birlik və qardaşlıq tellərini daha da möhkəmləndirir.

Biz Ermənistan rəhbərliyinin təcavüzkar hərəkətlərini, ağır kütləvi qırğın silahlarının dinc mülki əhaliyə qarşı istifadəsini qətiyyətlə pisləyir, beynəlxalq strukturları ikili standartlar siyasətindən əl çəkməyə, təcavüzkar ölkə olan Ermənistana lazımi təzyiq göstərməyə çağırırıq".




# *Hikmət HACIYEV:* “Ermənistanın Moskva bəyanatından sonra yenə də Azərbaycanın yaşayış məntəqələrini, infrastruktur obyektlərini hədəf alması qəbuledilməzdir”

Ermənistanın Moskva bəyanatından sonra yenə də Azərbaycanın yaşayış məntəqələrini, infrastruktur obyektlərini hədəf alması qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 14-də xarici ölkələrin səfirləri, Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə bildirib.

Ermənistanın yenidən qoşun toplayaraq Azərbaycana qarşı hücumlara keçdiyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib ki, bu ölkə münaqişəni getdikcə daha da gərginləşdirir. Bu gün də Ermənistanın Azərbaycanın şəhərlərini atəşə tutması nəticəsində infrastruktura ciddi ziyan dəyib, həlak olan və yaralananlar var. Ermənistan Azərbaycanın mülki əhalisini qətlə yetirməkdə davam edir. Azərbaycan bütün bunların qarşısını almaq üçün tədbirlər görmək məcburiyyətində qalır.

Hikmət Hacıyev bildirib ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə hazırdır. Ancaq görünən odur ki, Ermənistan Moskva danışıqlarını pozaraq münaqişəni gərginləşdirir. Moskva Bəyannaməsində qeyd olunub ki, münaqişə sülh yolu ilə baza prinsipləri əsasında həll edilməlidir. Ermənistan bu şərtlərin heç birinə əməl etmir, təxribatlarını davam etdirir.

❖ ❖ ❖

Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı raketlərdən, o cümlədən “Smerç” raketlərindən istifadə edir. Siz Gəncə şəhərinə səfər edəndə Ermənistanın təxribatının şahidi oldunuz.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 14-də xarici ölkələrin səfirləri, Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan hazırda da atəşkəs rejimini kobud şəkildə pozaraq Ağdam, Tərtər, Goranboy və digər şəhərləri atəşə tutur, gərginliyi daha da artırır. Hazırda münaqişə öz ərazisindən kənara çıxır. Çünki Ermənistan münaqişə zonasından uzaqda yerləşən şəhərləri də atəşə tutur. Ermənistan öz ərazisindən Azərbaycanı atəşə tutur. Bu gün Ermənistan Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərini vurmaq üçün raketləri hazır vəziyyətə gətirib. Biz Azərbaycan vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün həmin raket komplekslərinin neytrallaşdırılması istiqamətində tədbirlər gördük. Azərbaycanın bu addımı beynəlxalq qanunlara uyğundur, çünki beynəlxalq hüquqa əsasən, təhlükəsizliyi təmin etmək üçün ölkəmiz təhlükə yaradan hərbi hədəfləri vurmaq hüququna malikdir. Ermənistan səhər saatlarında da Azərbaycanın mülki əhalisini vurmaq üçün raket komplekslərini hazır vəziyyətə gətirmişdi. Azərbaycan təhlükə mənbəyini neytrallaşdırmaq üçün beynəlxalq hüquqdan istifadə edərək tədbirlər görüb. Çünki biz bundan əvvəl gördük ki, Ermənistan mülki əhalini hədəf alır, xeyli sayda mülki insan həlak olur. Bu hadisənin təkrarlanmaması üçün Azərbaycan təhlükə yaradan hərbi hədəfləri neytrallaşdırıb.

❖ ❖ ❖

“Ermənistanın rəsmi şəxsləri açıq şəkildə müraciət edərək xarici ölkə vətəndaşlarını könüllü adı altında muzdlular kimi Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etmək üçün cəlb edirlər”.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: “Bu gün həm müxtəlif internet resurslarında, həm də sosial şəbəkələrdə digər ölkə vətəndaşlarının işğal olunmuş ərazilərimizdə Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirakı ilə bağlı çoxsaylı məlumatlara rast gəlinir.

Ermənistan döyüşlərə silahlı muzdluları cəlb etməklə beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərini açıq şəkildə pozur. BMT-nin “Silahlı muzdluların cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və təliminə qarşı Beynəlxalq Konvensiyası”nda qeyd olunur ki, üzv dövlətlər muzdluları cəlb və istifadə etməməli, maliyyələşdirməməli və ya onlara təlim keçməməli, eləcə də belə addımları qadağan etməlidirlər.

BMT-nin silahlı muzdlularla bağlı çoxsaylı qətnamələri var. Bu qətnamələr silahlı muzdlu fəaliyyəti ilə məşğul olanlara və onlardan istifadə edənlərə qarşı cəzasızlığı qınayır, bütün dövlətləri beynəlxalq hüquq qarşısında öhdəlikləri çərçivəsində silahlı muzdluları və onlardan istifadə edənləri məsuliyyətə cəlb etməyə çağırır. Silahlı muzdlulardan insan hüquqlarını pozmaq vasitəsi kimi istifadə edilməsi ilə bağlı BMT-nin müvafiq işçi qrupu da var.

Bundan əlavə, Avropa Şurasının “Terrorizmin qarşısının alınması üzrə 2005-ci il Varşava Konvensiyası”nın 2015-ci ildə qəbul edilmiş Əlavə Protokolu da terrorizm məqsədilə xaricə gedən şəxslərə qarşı ölkələr tərəfindən cinayət məsuliyyətinin tətbiqini nəzərdə tutur.

Bu faktlar göstərir ki, beynəlxalq ictimaiyyət silahlı muzdlu probleminin kəskinliyini və ona qarşı mübarizənin labüdlüyünü dərk edir. Ermənistan isə bunun tam əksini edir və hətta silahlı muzdluların istifadəsini qanuniləşdirmək istəyir. Bununla da növbəti dəfə beynəlxalq hüququ pozur və BMT-nin qadağalarına qarşı gedir.

Bir sıra dövlətlərin qanunvericiliyində xaricdəki döyüşlərdə silahlı muzdlu kimi iştirak edən vətəndaşlara qarşı uzunmüddətli həbs və böyük məbləğdə cərimələr nəzərdə tutulur. Bu qəbildən olan silahlı qruplaşmanın yaradılmasında və idarəçiliyində yer alan şəxsləri isə daha ağır cəzalar gözləyir. Həmçinin hərbi əməliyyatlarda iştirak edən şəxslərin müəyyən hüquqlardan məhrum edilməsi (səsvermə, seçkilərdə iştirak, vəkillik, şahidlik, himayədarlıq, oturum icazəsi) də nəzərdə tutulur.

Avropanın bir sıra dövlətləri qeyri-qanuni silahlı qruplaşmalara qoşulmalarına görə öz vətəndaşlarına qarşı ciddi tədbirlər görür. Məsələn, cari il iyulun əvvəllərində Fransada İŞİD-in tərkibində döyüşlərdə iştirak etmiş Tiler Vilus adlı şəxs 30 il müddətinə azadlıqdan məhrum edilib. Amma Xocalı soyqırımında iştirak etmiş Qilbert Minasyan adlı Fransa vətəndaşı “Liberation” qəzetinə müsahibəsində Fransa vətəndaşlarını muzdlu kimi Azərbaycana qarşı döyüşlərdə iştirak etmək üçün səfərbər etdiyini bildirib.

Son hərbi əməliyyatlar başlamazdan əvvəl də Ermənistan silahlı muzdluların, terroristlərin Azərbaycanın işğal olunmuş ərazilərinə gətirilməsini təşkil edirdi.

Xaricdən silahlı muzdluların gətirilməsi Ermənistanda müdafiə haqqında qanuna dəyişikliklərin ediləcək könüllülərin müdafiəyə cəlb olunması məsələsinin müzakirəsi zamanı daha aydın oldu. Bu addımla Ermənistan könüllülər adı altında faktiki olaraq digər ölkələrdən silahlı muzdluları və terrorçuları öz ordusuna cəlb etmək məqsədi güdür.

Son döyüşlər zamanı isə bu proses daha da sürətləndirilib. Həm əvvəlcədən əldə olunmuş məlumatlar, həm də işğaldan azad edilmiş Azərbaycan torpaqlarında rast gəlinmiş hallar açıq şəkildə Ermənistan tərəfində xarici ölkələrdən gələn silahlı muzdlu döyüşçü və terroristlərin vuruşduğunu sübut edir. Bizdə buna aid bir çox foto və video dəlillər var. Muzdlular arasında erməni əsilli xarici ölkə vətəndaşları yetərincədir. Həmin şəxslər mülki Azərbaycan əhalisinə qarşı hücumlarda iştirak edirlər. Bu şəxslərin erməni əsilli olması onların Azərbaycan ərazilərində döyüşməsinə haqq qazandırmır və onları xarici döyüşçü statusundan azad etmir.

Bu xüsusda aidiyyəti ölkələri belə addım atan vətəndaşları ilə bağlı ciddi tədbirlər görməyə, onların işğal olunmuş ərazilərə gəlmələrinin qarşısını almağa, eləcə də bu şəxslərə qarşı cinayət işləri açmağa çağırırıq.

İşğal altındakı ərazilərimizdə vuruşan və hərbi əməliyyatlarda iştirak edən zaman həmin şəxslər avtomatik olaraq Azərbaycan Ordusunun legitim hədəfinə çevrilirlər. Döyüşdən sağ çıxıb öz ölkələrinə qayıdan silahlı muzdlular isə öz cəmiyyətləri üçün böyük təhlükə mənbəyinə çevriləcəklər”.

❖ ❖ ❖

Oktyabrın 14-də xarici ölkələrin səfirləri, Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, Azərbaycan öz ərazilərini işğaldan azad edir.

Prezidentin köməkçisi münaqişənin həlli prinsiplərinin müəyyən edildiyini bildirib. O vurğulayıb ki, münaqişənin həlli prosesinə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərini tərk etməsi ilə başlanıla bilər. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilə bilər.

# Ermənistan silahlı qüvvələrinin raket və artilleriya atəşləri məktəb və yaşayış evində yanğınlara səbəb olub

Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edib.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan ordusunun atdığı mərmi Tərtər rayonunda məktəb binasında yanğına səbəb olub. Yanğın nəticəsində sinif otağının bir hissəsi yanıb. Məktəbin qalan hissəsi əraziyə cəlb olunmuş Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən yanğından mühafizə edilib.

Bundan başqa, Tərtər rayonunda fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində yanğın baş verməsi barədə məlumat daxil olub. Lakin ərazi düşmən tərəfindən davamlı atəş altında saxlanıldığından yanğına müdaxilə edilməsi mümkün olmayıb.

FHN hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - “Qaynar” telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

# *Elçin ƏMİRBƏYOV:* “Beynəlxalq ictimaiyyətin Ermənistanın müharibə cinayətlərinə qarşı kifayət qədər reaksiyasının olmaması təəssüf doğurur”

**“Təəssüf ki, beynəlxalq ictimaiyyətin Ermənistanın törətdiyi müharibə cinayətlərinə qarşı kifayət qədər reaksiyası yoxdur. Siz Gəncədə Ermənistanın beynəlxalq müharibə cinayəti törətdiyinin şahidi oldunuz”.**

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov xarici ölkələrin səfirləri, Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə söyləyib.

Elçin Əmirbəyov deyib ki, Azərbaycan öz əhalisinin təhlükəsizliyini təmin etmək üçün lazımi qabaqlayıcı addımlar atmağa hazırdır. Ermənistan atəşkəs rejiminə əməl etməli, işğal olunmuş ərazilərdən öz qoşunlarını çıxarmalıdır. Yalnız bu halda münaqişə sülh yolu ilə öz həllini tapacaq. Sülh yolu ilə də olmasa, Azərbaycan hərbi yolla öz ərazisini işğaldan azad edəcək.

❖ ❖ ❖

Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov “Əl-Ərəbiyə” televiziya kanalına müsahibəsində Türkiyə və Azərbaycan tərəfindən Yaxın Şərqdən muzdluların, cihadçıların cəlb edilməsi ilə bağlı iddiaları bir daha rədd edərək, bu şayiələri yalan, heç bir əsası olmayan və dünya ictimai fikrini qəsdən yanıldan adlandırıb.

Ermənistanın PKK-dan və Kürd Vətən İttifaqından minlərlə terrorçunu, həmçinin bir sıra Avropa ölkələrinin, ABŞ-ın və Yaxın Şərqin vətəndaşı olan erməni əsilli muzdlu və silahlıları cəlb etdiyini bildirən E.Əmirbəyov Azərbaycana qarşı yenidən ikili standartların tətbiq edildiyini vurğulayıb və onların günahının başqasının boynuna atmaq cəhdinin göz qabağında olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanı ittiham edən tərəflərdən heç biri yuxarıda göstərilən iftiraları təsdiqləyən ən azı bəzi dəlillər təqdim etmədilər, necə ki, açıq-aydın yalanlara görə üzr istəmək üçün özlərində cəsarət tapmadılar.

Atəşkəs perspektivlərinə gəldikdə, E.Əmirbəyov qeyd edib ki, Bakı xoş niyyətini və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə tərəfdarlığını nümayiş etdirərək, Rusiya paytaxtındakı görüşdə iştirak etdi və Moskva bəyanatına qatıldı. Ermənistan isə danışıqlar masasına qayıtmaq və hərbi təcavüzünü dayandırmaq istəyinin, niyyətinin olmadığını bir daha nümayiş etdirdi. Üstəlik, öz ərazisindən Gəncə şəhərinin mülki əhalisini gecə xaincəsinə atəşə tutmaqla Ermənistan bəşəriyyətə qarşı cinayət və Azərbaycan xalqına qarşı da növbəti soyqırımı aktını törətdi. Mülki əhaliyə qarşı “Elbrus” (SKAD) qanadlı raketinin istifadəsi 1949-cu il dördüncü Cenevrə Konvensiyasına görə, müharibə cinayətidir və bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərindədir.

Birinci vitse-prezidentin köməkçisi vurğulayıb ki, bu yolla Paşinyan beynəlxalq müharibə cinayətləri tribunalında Ermənistan rəhbərlərinin “gözləmə siyahısına” əlavə olundu. Gec-tez o da sələfləri kimi ədalət məhkəməsi qarşısına çıxacaq və çirkin cinayətlərinə görə cavab verəcək.

# Yaşayış məntəqələrimizi hədəfə alan düşmən raketləri bölmələrimizin qabaqlayıcı zərbəsi ilə sıradan çıxarılıb

Oktyabrın 14-də Hərbi İnformasiya Mərkəzində Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri üçün təşkil olunan brifinqdə Azərbaycan Hərbi Hava Qüvvələrinin Qərargah rəisi, general-mayor İkram Əliyev mülki əhalini hədəfə alan Ermənistan silahlı qüvvələrinə məxsus operativ-taktiki komplekslərin taktiki xüsusiyyətləri və onların imkanları barədə məlumat verib.

AZƏRTAC xəbər verir ki, brifinqdə çıxış edən general-mayor İ.Əliyev 9K72 operativ-taktiki raket kompleksinin (OTZK) 8K14 raketi ilə birgə canlı qüvvəni, idarəetmə məntəqələrini, aerodromları və digər əsas obyektləri məhv etmək üçün təyin olunduğunu bildirib. Qeyd edib ki, bu kompleks silahlanmaya 1967-ci ildə qəbul edilib. Raketin atəş məsafəsi 50-300 kilometr, maksimal uzaqlığa uçma vaxtı 5 dəqiqə, start çəkisi 5862 kiloqram, doldurulmamış raketin çəkisi isə 2076 kiloqramdır. Uzunluğu 11 metr 164 santimetrdir. Korpusunun diametri 881 metrdir. Kompleksin ümumi çəkisi 37 ton, döyüş heyəti 8 nəfərdən ibarətdir.

Xüsusi vurğulanıb ki, 8K14 raketi reaktiv maye mühərrikli, ayrılmayan döyüş hissəli, avtonom idarəetmə və qəza partlayış sistemli ballistik raketdir. Raket fuqaslı 987 kiloqram həcmli partladıcı döyüş hissəsi ilə təchiz olunub. Həmin döyüş hissəsi bir hektara qədər ərazidə döyüş texnikasını və şəxsi heyəti məhv etməyə qadirdir. Uçuş trayektoriyasının hündürlüyü uzaq məsafəyə atılanda 86 kilometr, yaxın məsafəyə atış zamanı isə 24 kilometrdir. Uçuş vaxtı 165-313 saniyədir.

Düşmənin silahlanmasında olan taktiki və operativ taktiki raket sistemlərinin hədləri barədə fotoslaydlar əsasında məlumat verən İ.Əliyev diqqətə çatdırıb ki, oktyabrın 11-də Mingəçevir və Gəncə şəhərlərinə zərbələr endirilib. Fotoşəkillərdən də göründüyü kimi, əgər bu raket atılsaydı, o hətta Bakının da ətrafına düşə bilərdi. Burada böyük infrastrukturlar daxil olmaqla zərbə endirilə bilərdi. Ötən gün bu sistemlər Dağlıq Qarabağ ərazisinə keçsəydi, həmin sistemlərin atəş məsafəsi Bakını da ötə bilərdi.

Əldə olunan kəşfiyyat məlumatları əsasında müəyyənləşdirilib ki, Ermənistan tərəfindən atılan “Toçka-U” raketi Xankəndi ətrafındakı Ballıca yaşayış məntəqəsinin yanından start mövqe tutaraq oradan zərbə endirib. Mülki yaşayış məntəqələrimizə atılan bu ballistik raketlərin bir hissəsi Azərbaycan Hərbi Hava Qüvvələrinin hava hücumundan müdafiə bölmələri tərəfindən vaxtında aşkarlanaraq məhv edilib. Amma səmərəli mübarizə ondan ibarətdir ki, həmin ballistik raketlərin buraxıcı qurğuları raketlər buraxılmamışdan əvvəl yerdə məhv edilməsini nəzərə alaraq Azərbaycan Ordusu ballistik raketlərin buraxıcı qurğularına və onları dəstəkləyən infrastruktura qarşı müxtəlif növ kəşfiyyat və zərbə vasitələrindən istifadə edərək xüsusi əməliyyatlara başlayıb.

Beləliklə, ballistik raketlərə qarşı xüsusi əməliyyatların nəticəsində oktyabrın 12-də saat 14 radələrində işğal altındakı Qubadlı rayonu ərazisində bir ədəd “Toçka-U” raketi məhv edilib. Oktyabrın 14-də gecə saat 01 radələrində iki ədəd və səhər 08:30 radələrində bir ədəd olmaqla, ümumilikdə, üç ədəd “Elbrus” ballistik raket qurğusunun raketləri ilə birlikdə ordumuz tərəfindən aşkarlanaraq məhv edilib.

General-mayor İ.Əliyev bildirib ki, 300 kilometr atış məsafəsinə malik “Elbrus” ballistik raketi kifayət qədər ön cəbhəyə gətirildiyi zaman Bakı şəhərinə çatacaq uçuş məsafəsinə də malikdir. Əgər Dağlıq Qarabağ ərazisinə o gətirilsəydi, hansı dağıntılara səbəb ola biləcəyi aydın təsəvvür etmək mümkündür. Əldə edilmiş kəşfiyyat məlumatları əsasında Dağlıq Qarabağda yerləşən 1-ci ümumqoşun ordusunun tərkibində belə hərbi hissənin olmadığını bilirik. Bu silah Ermənistanın 71-ci raket alayının tərkibindədir. Həmin hərbi hissə Stepanavan şəhərində yerləşir.

Sonra hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilən həmin sistemlərin döyüş mövqeyi tutduğu, köməkçi avtomobillərin də yaxınlaşdığı və raketlərin atışa hazırlandığı əks olunan video nümayiş etdirilib.

# Müdafiə Nazirliyi xəbər verir

## Mülki əhalimizi və yaşayış məntəqələrimizi hədəfə alan düşmənin bütün legitim hərbi hədəfləri məhv ediləcək

**Oktyabrın 13-dən 14-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalıb.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın edib və görülən tədbirlər nəticəsində itki verərək geri oturdulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖

Oktyabrın 14-ü saat 08:36 radələrində Ermənistan Respublikasının Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonuna yaxın sərhədyanı ərazilərində Ermənistan silahlı qüvvələri növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi müşahidə edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, operativ-taktiki raket kompleksinin mülki insanlar arasında tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə Gəncə, Mingəçevir və digər şəhərlərə doğru hədəfləndiyi müəyyənləşdirilib.

Mülki insanların təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəf kimi start vəziyyətində olan raketlər qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarılıb.

Bundan əvvəl saat 01:00 radələrində həmin istiqamət üzrə start vəziyyətinə gətirilmiş əməliyyat-taktiki raket kompleksi də dəqiq zərbə ilə məhv edilmişdi.

Raketlərin atəş vəziyyətinə gətirildiyi məntəqələrdə hər hansı mülki infrastruktur və obyektlər olmayıb.

❖ ❖ ❖

Ermənistan müdafiə nazirliyi etiraf etdi ki, atəş zərbəsi ilə sıradan çıxarılan əməliyyat-taktiki raket kompleksləri (ƏTRK) Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda, mülki obyekt və infrastrukturun olmadığı ərazidə tam döyüş növbəsində və tətbiqə hazır vəziyyətdə olub. Həmin ƏTRK-lar Azərbaycan ərazisindəki mülki obyektləri və infrastrukturu hədəfə almışdı. Ermənistan müdafiə nazirliyinin, guya, Ermənistan ərazisindən Azərbaycanın yaşayış məntəqələrinə atəş açılmaması barədə bəyanatları isə açıq-aşkar yalandır.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin açıqlamasında bildirilib. Məlumatda qeyd olunub ki, Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrimizin məhz Ermənistan ərazisindən atəşə tutulması danılmaz faktdır.

Azərbaycanın Ermənistan ərazisində hər hansı hərbi hədəf və maraqları yoxdur. Əksinə, Ermənistan öz ərazisindən Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqla qəsdən münaqişənin coğrafiyasını genişləndirmək məqsədini güdür.

Müdafiə Nazirliyi bildirib ki, mülki əhalimiz və yaşayış məntəqələrimizin təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəflərin zərərsizləşdirilməsi hüququnu Azərbaycan bundan sonra da özündə saxlayır.

❖ ❖ ❖

Oktyabrın 14-də saat 01:00 radələrində Ermənistan Respublikası tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ilə yaxın sərhəd zonasında bir neçə əməliyyat-taktiki ballistik raket kompleksinin start mövqeyində yerləşdirilməsi müşahidə olunub. Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu ərazidəki raket kompleksləri Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərindəki dinc əhali və infrastruktura doğru hədəflənmişdir.

Oktyabrın 11-də Ermənistan tərəfindən Gəncə şəhərində törədilmiş hərbi cinayətə bənzər növbəti hadisənin təkrarlanmaması və raket hücumunun qarşısının alınması məqsədilə Azərbaycan Ordusu tərəfindən qabaqlayıcı tədbirlər görülüb.

Nəticədə atəş üçün hazırlıq vəziyyətinə gətirilən əməliyyat-taktiki raket kompleksləri legitim hərbi hədəf kimi zərərsizləşdirilib.

Müdafiə Nazirliyi bildirir ki, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rejiminin üzərinə düşür.








Atıcı qurğu raketlə səfər vəziyyətində



Atıcı qurğu döyüş vəziyyətində

**8K14 raketi** - reaktiv maye mühərrikli, ayrılmayan döyüş hissəli, avtonom inersiya idarəetmə və qəza partlayış sistemli - **ballistik raketdir.**

Raket fuqaslı 8F44 çəkisi 987 kq həcmli partladıcı döyüş hissəsi ilə təchiz olunur. Fuqaslı 8F44 döyüş hissəsi **100x100** metr ərazidə döyüş texnikasını və şəxsi heyəti məhv etməyə qadirdir.

**Atış məsafəsi:**
-yaxın – 50 km;
-uzaq – 300 km.

**Uçuş trayektoriyasının hühdürlüyü:**
-minimum – 24 km;
-maksimum – 86 km.

Uşuş vaxtı: 165 san. – 313 san. qədər







Operativ-taktiki raket kompleksi **9K72** (R-300),



Operativ-taktiki raket kompleksi **9K72** (R-300), R-17 (8K-14) raketi ilə birgə canlı qüvvəni, idarəetmə məntəqələrini, aerodromları və digər əsas obyektləri məhv etmək üçün təyin olunub. 1967-ci ildə silahlanmaya qəbul olunub.

**Ermənistan Silahlı Quvvələrində 8 ədəd atıcı qurğu və 24 ədəd raket mövcuddur və 71-ci (Stepanavan y.m.) raket alayının tərkibindədir.**

**Operativ-taktiki raket kompleksi 9K72 (R-300) tərkibinə daxildir**

- 8K14 raketi;
- buraxıcı qurğu 9P117 (9P117M, M1);
- topobəndetmə 1T12 (1T20);
- tuşlama cihazı 8Ş18;
- raket yanacağının və okislitelin doldurulması üçün divizionun texniki vasitələr.

**Əsas taktiki texniki xassələr**

| Atış məsafəsi, km | 50-300 |
|---|---|
| Maksimal uzaqlığa uçma vaxtı, dəqiqə | 5 |
| Start çəkisi, kq | 5862 |
| Doldurulmamış raketin çəkisi, kq | 2076 |
| Uzunluğu, mm | 11164 |
| Korpusun diametir, mm | 880 |
| Stabilizatorlar arasında olan məsafə, mm | 1810 |
| Kompleksin çəkisi, ton | 37 |
| Döyüş heyəti, nəfər | 8 |





❖ ❖ ❖

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bölmələrimiz tərəfindən məhv edilən Ermənistan silahlı qüvvələrinə məxsus əməliyyat-taktiki raket komplekslərinin (ƏTRK) mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutmaq məqsədilə start mövqeyinə çıxarılmasının videogörüntülərini paylaşıb.

❖ ❖ ❖

Ermənistan tərəfinin, guya, Azərbaycan Ordusunun mülki əhalinin də müalicə olunduğu hospitala atəş açması barədə yaydığı məlumat yalandır. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrindən fərqli olaraq, Azərbaycan Ordusu heç bir mülki infrastruktura və qeyri-hərbi hədəfə atəş açmır. Ordumuz humanitar atəşkəs rejiminə ciddi əməl edir.

❖ ❖ ❖

Oktyabrın 14-də günorta saatlarında cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) bölmələrimiz tərəfindən məhv edilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

❖ ❖ ❖

Ermənistanda hərbi qurumun nümayəndəsi hər gün həqiqəti əks etdirməyən məlumatlar və itkilər haqqında yalan statistikalarla mətbuat qarşısına çıxmağa məcburdur.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, onun məqsədi cəbhədə böyük itkilərə məruz qalaraq bir-birinin ardından yaşayış məntəqələrimizi qoyub qaçan Ermənistan silahlı qüvvələrinin uğursuzluqlarını ört-basdır etmək, öz xalqını sakitləşdirmək və eyni zamanda təxribat xarakterli belə məlumatlarla dünya ictimaiyyətinin diqqətini yayındırmaqdır.

Bir daha rəsmi olaraq bildiririk ki, Ermənistan tərəfindən fərqli olaraq Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi əməl edir.

❖ ❖ ❖

Ermənistan bütün mümkün olan və olmayan üsullardan istifadə etməklə ictimaiyyətə yalan məlumatlar yaymaqda davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, növbəti dezinformasiya isə, guya, Azərbaycan tərəfindən PUA-nın zərbəsi nəticəsində adı və soyadı göstərilməyən, 14 yaşlı anonim yeniyetmənin yaralanması xəbəridir.

"Bildiririk ki, Azərbaycan Ordusunun silahlanmasında olan zərbə PUA-ları yalnız işğal altındakı ərazilərimizdə müvəqqəti yerləşən Ermənistan silahlı qüvvələrinin hərbi texnikasına qarşı tətbiq olunur.

Bir daha xatırladırıq ki, Ermənistan silahlı qüvvələrindən fərqli olaraq Azərbaycan Ordusu mülki əhaliyə, xüsusilə uşaqlar, qadınlar və yaşlılara qarşı silah tətbiq etmir", - deyə Müdafiə Nazirliyinin məlumatında vurğulanıb.

# Baş Prokurorluqdan



## "ASALA" terror təşkilatının üzvü olan Fransa vətəndaşı və onun dəstəsinin Azərbaycan ərazisində törətdiyi əməllərə görə cinayət işi başlanıb

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, eləcə də ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən bu tədbirlərin davamı kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğunda "ASALA" terror təşkilatının üzvü, terrorçuluq fəaliyyətinə görə dəfələrlə məhkum edilmiş Fransa Respublikasının vətəndaşı Gilbert Minasyan və onun rəhbərlik etdiyi 15 nəfərdən ibarət hərbi təcrübəyə malik dəstənin Azərbaycan Respublikasının ərazisində törətdikləri cinayət əməllərinə dair yerli və xarici kütləvi informasiya vasitələrində yayılmış çoxsaylı məlumatlar əsasında araşdırma aparılıb.

Araşdırmalarla terror təşkilatının üzvü Fransa vətəndaşı Gilbert Minasyan və onun rəhbərlik etdiyi 15 nəfərdən ibarət hərbi təcrübəyə malik dəstənin digər üzvləri birlikdə Ermənistanda və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik tərkibində birləşərək "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun və Miqrasiya Məcəlləsinin tələblərinə zidd olaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel tarixli 822 saylı, 1993-cü il 29 iyul tarixli 853 saylı, 1993-cü il 14 oktyabr tarixli 874 saylı, 1993-cü il 12 noyabr tarixli 884 saylı qətnamələrinə əsasən Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələrinə, "Dağlıq Qarabağ respublikası" adı altında fəaliyyət göstərən qanunsuz rejimin dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı, eləcə də Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsinə yönələn təcavüzkar müharibədə Ermənistan Respublikasının siyasi-hərbi rejimi tərəfindən hərbi münaqişədə muzdlu kimi istifadə edilmələrinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, araşdırmalarla həmin şəxslərin qanunsuz olaraq əldə etdikləri odlu silahlardan, döyüş sursatlarından və komplekt hissələrindən istifadə etməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələrinə şübhələr üçün əsaslar müəyyənləşdirilib.

Həmçinin düşmən geri çəkildikcə işğaldan azad olunmuş ərazilərdə prokurorluq əməkdaşları tərəfindən aparılan istintaq hərəkətləri ilə toplanmış sübutlarla xarici ölkə vətəndaşları olan muzdluların qeyri-qanuni yollarla gətirdikləri silah-sursatdan Azərbaycan Ordusuna qarşı istifadə etmələri təsdiqini tapıb.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 214.2.3-cü (terrorçuluq), 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) və digər maddələri ilə cinayət işi başlanılıb. İstintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.

Həmin şəxslərin vətəndaşı olduqları ölkənin səlahiyyətli qurumlarına Baş Prokurorluq tərəfindən hüquqi yardım haqqında sorğular göndərilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Əvvəllər xəbər verildiyi kimi, eyni məzmunlu cinayət əməllərinə yol vermiş Fransa Respublikasının vətəndaşı Artur Oqanisyan və Gürcüstan vətəndaşı Vaaqn Çaxalyanın barəsində başlanmış cinayət işi üzrə də istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, işğal olunmuş ərazilərimizdə yaradılmış qondarma rejim tərəfindən muzdluların və terrorçulardan istifadənin qanuniləşdirilməsi məqsədilə "qəbul olunmuş hər hansı qanun" beynəlxalq hüququn normalarına zidd olmaqla bu tipli əməllərə yol vermiş şəxsləri cinayət məsuliyyətindən azad etmir.

## Düşmənin dinc əhalini atəşə tutması nəticəsində Ağdam rayonunun Çəmənli kənd sakini xəsarət alıb

Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan olunan humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də səhər saatlarından başlayaraq düşmən tərəfin silahlı birləşmələri tərəfindən Ağdam rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Saat 12 radələrində Ağdam rayonunun Çəmənli kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 1964-cü il təvəllüdlü Soltanov Saleh Eldar oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, evə isə ciddi ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

## Tərtər rayon sakini yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində həlak olub

Oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozan Ermənistanın silahlı qüvvələri mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də səhər saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Tərtər rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub.

Bu gün saat 09 radələrində Tərtər rayonunun Narlı qəsəbəsində yaşayan 1969-cu il təvəllüdlü Axundov Ədavət Zahid oğlu yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində həlak olub, yaşayış evinə isə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

## Düşmənin Tərtər rayonunun yaşayış məntəqələrini atəşə tutması nəticəsində 8 nəfər xəsarət alıb

Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də səhər saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Tərtər rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Saat 10 radələrində Tərtər rayonu ərazisində kənd orta məktəbinin həyətinə mərmi düşməsi nəticəsində Tərtər Rayon İcra Hakimiyyəti başçısının Düyərli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi 1971-ci il təvəllüdlü Zeynalov Ramiz Surxay oğlu, Əsgərli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi 1966-cı il təvəllüdlü Əhmədov Kamran Vəliyəddin oğlu, kənd sakinləri 1976-cı il təvəllüdlü Əliyev Mətləb Cəmşid oğlu, 1987-ci il təvəllüdlü Əhmədov Xəyyam Məhəmməd oğlu, 1965-ci il təvəllüdlü İbrahimov İlqar İbrahim oğlu, 1996-cı il təvəllüdlü Ağazadə Firdovsi Alim oğlu və 1960-cı il təvəllüdlü Süleymanov Ağa Süleyman oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

Bundan başqa, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nın (AZTV) cəbhəboyu zonaya ezam olunmuş əməkdaşı 1983-cü il təvəllüdlü Qəmbərov Namiq Malik oğlu Ermənistanın mülki əhaliyə qarşı törətdiyi təxribatları dünya ictimaiyyətinə çatdırarkən televiziyanın xidməti avtomobilinin atəşə tutulması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, avtomobilə isə ciddi ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

Əvvəli 1-ci səh.

# “Gecə-gündüz yorulmadan göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndiririk”

Azərbaycanın sevinci bizim sevincimizdir, Azərbaycanın kədəri bizim kədərimizdir. Azərbaycanın zəfəri bizim zəfərimizdir. Azərbaycan Ordusunun zəfərlə irəliləməsini hər gün xəbərlərdən izləyirəm. Haqsız, zalım, ikiüzlü, vicdansız erməni terrorçu dövlətinin ordusunun yerlə-yeksan olduğunu, onların Azərbaycan əsgəri qarşısında duruş gətirə bilməyərək qaçdıqlarını görmək bizə çox xoş gəlir. Mənim 40 yaşım var. İmkan olarsa, qardaş Azərbaycanın qəhrəman əsgərləri ilə bir cəbhədə vuruşmaq, erməni terrorçularını məhv etmək istərdim. Dualarımız Sizinlə, qəlbimiz Sizinlədir, cənab Prezident! Gərək olarsa bu yolda canımızı da verərik. Allah yar və yardımçınız olsun. Zəfər Azərbaycanındır. Qarabağ Azərbaycandır!”.

İzmir şəhərindən **Muxtar Fatih Beydili:** “Çox hörmətli cənab Prezident, Siz dünyanın ən savadlı, ən vətənpərvər və uzaqgörən dövlət başçısısınız. Mən Sizə dünyadakı bütün türkmənlərin, həmçinin Hələbdə İmadəddin Nəsiminin nəvələri adından təşəkkür edirəm. Sizin rəhbərliyinizlə ordumuzun apardığı uğurlu əməliyyatlar nəticəsində torpaqlarımızın müəyyən bir hissəsi işğaldan azad olunub. Bu münasibətlə Sizi və xalqımızı təbrik edirəm. Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. İnanırıq ki, rəşadətli ordumuz Sizin rəhbərliyinizlə tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək. Sizə cansağlığı arzu edirik. Cənab Prezident, Sizin və qəhrəman ordunuzun qələbə çalması üçün dualar edirik. Allah Ordumuzu qorusun. Sizi və bütün türk millətini qorusun. Türkün türkdən başqa dostu yoxdur. Cənab Ali Baş Komandan, bütün dünya türkləri həmişə Sizin yanınızdadır. Allah Sizi və can Azərbaycanın xalqını qorusun. Xalq Sizinlədir və zəfər də Sizinlədir. Biz də sizlərlə çiyin-çiyinə dayanmışıq. Sizin rəhbərliyinizlə Azərbaycan bu gün dünyada daha layiqli və nüfuzlu yer tutur. Ölkənin uğurlu iqtisadi inkişafında, yüksək mənəvi-əxlaqi ab-havanın qorunub saxlanılmasında, mədəniyyət, elm və təhsilin hərtərəfli inkişafında quruculuq enerjisi ilə aşıb-daşan, nəzərdə tutulan planların həyata keçməsinə ardıcıllıqla və qətiyyətlə nail olan bir lider kimi Sizin şəxsi xidmətləriniz böyükdür. Siz fədakarcasına Azərbaycan xalqının xoşbəxtliyinin və rifahının qayğısına qalırsınız. Sizə möhkəm cansağlığı, bütün planlarınızın müvəffəqiyyətlə həyata keçməsini arzulayırıq. Qoy, Sizin səyləriniz Azərbaycan Respublikasının rifahı və xalqlarımızın dostluğu naminə bundan sonra da öz gözəl bəhrələrini versin. Zəfər xəbərlərini gözləyirik”.



Moskva şəhərindən **Vaqif Həsənov** yazır: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, uğurlu siyasətinizi və Azərbaycan üçün etdiklərinizi yüksək qiymətləndiririk. Düşmənlərimizə qarşı şiddətli döyüşlərdə ordumuza zəfər, xalqın gücü ilə yüksələrək apardığınız mübarizədə Sizə cansağlığı, uzun ömür və yeni qələbələr arzulayıram. Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycana! Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycanın qalib Prezidenti İlham Əliyevə! Eşq olsun igid, qəhrəman Azərbaycan əsgərinə!”.

Gəncə şəhərindən **Maqsud Əsgərovun** məktubunda deyilir: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, biz Sizin torpaqlarımızın işğaldan azad olunması uğrunda gecə-gündüz yorulmadan göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndiririk, Sizə bu gərgin və şərəfli işinizdə uğurlar arzulayırıq. Biz inanırıq ki, Sizin qurduğunuz güclü Azərbaycan və güclü ordu tezliklə işğal olunmuş torpaqlarımızı işğaldan azad edəcək. Bu haqq yolunda göstərdiyiniz xidmətlər ədalətin zəfəri olacaq və biz vətəndaşlar bildiririk ki, Prezidentimizin ətrafında sıx birləşmişik”.

Qusar sakini **Nadirşah Şirinov:** “Hörmətli cənab Prezident, bizlərə heç bir sözlə ifadə olunmayan sevinc hisslərini yaşatdığınıza görə Qusar rayonunun bütün sakinləri adından dərin minnətdarlığımı bildirirəm. İllərdir mənfur düşmənin işğalı altında olan torpaqlarımızın azad edilməsi ilə bağlı verdiyiniz qərar və şanlı ordumuzun qələbələri bizi çox sevindirir. Bu gün Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri də Sizin ətrafınızda yumruq kimi birləşib və hər bir əmrinizə hazırdır. Sizinlə fəxr edirik. Allah Sizi və şanlı Azərbaycan Ordusunu qorusun, İnşallah”.

Bakı şəhər sakini **Səbuhi Bağırov:** “Hörməli cənab Prezident, Sizi və bütün xalqımızı cəbhə bölgəsində şanlı Ordumuz tərəfindən qazanılan uğurlara görə təbrik edirəm və bu uğurların davamlı olmasını arzulayıram. Mənim qardaşım da cəbhədədir, hazırda bütün düşüncələrim cəbhə ilə bağlıdır. Tanrı Ordumuzu qorusun! İnanırıq ki, Sizin rəhbərliyiniz altında və güclü Ordumuz sayəsində işğal olunmuş bütün torpaqlarımız azad ediləcək və üçrəngli bayrağımız doğma Qarabağımızın hər bir guşəsində əzəmətlə dalğalanacaq”.

Paytaxt sakini **Həsən Həsənov:** “Çox hörmətli cənab Prezident, mən 1977-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalında anadan olmuşam. Ölkəmizin xüsusi təyinatlı hərbi hissəsində kəşfiyyatçı kimi müddətli həqiqi hərbi xidmətdə olmuşam. Qarabağ müharibəsində ermənilərə qarşı vuruşmuşam, kəşfiyyatçı kimi tapşırıqları yerinə yetirmişəm. Bu sahədə böyük hərbi təcrübəm var. Qardaşım Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasında hərbi vəziyyət elan edildiyi bir vaxtda bir kəşfiyyatçı olaraq torpaqlarımızın azadlığı uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmək arzusundayam. Bu döyüşlərdə iştirak etmək mənim Vətən qarşısında borcumdur. Sizi əmin edirəm ki, mənə etimad göstəriləcəyi təqdirdə bu etimadı doğrultmaq üçün bütün gücümü, hərbi bilik və bacarığımı sərf edəcəyəm. Bir çox vətəndaş kimi mən də Sizin əmrinizi gözləyirəm”.

Qəbələ sakini **Elşad Məmmədov:** “Möhtərəm cənab Prezident, ötən illər ərzində ordu quruculuğu işlərinin mükəmməl təşkili və Sizin qətiyyətli mövqeyiniz bizə Qarabağı bəxş etməkdədir. Artıq bütün dünya Azərbaycanın güclü və mətin orduya sahib olduğuna şahiddir. Dünya hərb tarixinin ən parlaq qələbələrini bizə yaşatdığınız üçün Qəbələ rayonunda məskunlaşmış məcburi köçkünlər adından Sizə dərin minnətdarlığımızı bildirir və işlərinizdə böyük uğurlar arzu edirik. Azərbaycan bayrağının yaxın vaxtlarda Xankəndi və tarixi beşiyimiz olan Şuşada dalğalanacağına tam əminik. Biz məcburi köçkünlər hər zaman Sizin əmrinizə hazırıq. Tanrı Sizi qorusun!”.

Tovuz sakini **Çingiz Babayev** dövlət başçısına yazır: “Hörmətli cənab Prezident, Sizi Tovuzun 30 ildən çoxdur ki, erməni məkri ilə üzbəüz dayanan Əlibəyli kəndinin müharibə veteranlarının adından Qarabağ uğrunda döyüşlərdə qazanılan uğurlara görə təbrik edirəm. 30 ildir ki, kəndimizin uşaqları müharibə şəraitində böyüyür, kənd sakinləri əkin-biçinini güllə altında edir. Qismən sakitlik olsa da bu illərdə mülki şəxslərimizdən qurbanlarımız da olur. Amma bizdən narahat olmayın. Biz ermənilərdən qorxmuruq, onlar bizdən qorxur. Tovuz döyüşlərində rayonumuzun hər bir sakini igid əsgərlərimizin yanında olmaq üçün can atırdı. İndi isə hamımız Qarabağa doğru can atırıq. Kəndimizin sakinləri, bütün müharibə veteranları Azərbaycan naminə verdiyiniz qərarları dəstəkləyir. Hamımız bir nəfər kimi Qarabağı azad etməyə hazır olduğumuzu bildiririk. Hər bir azərbaycanlının duasının əvvəli də, axırı da Sizin sağlamlığınız, güclü, qüvvətli olmanız üçündür. Dünyada kiçikdən böyüyə hamının sevimlisi olan Sizin kimi ikinci lider yoxdur, buna əminəm. Hamımız Sizi bir nəfər kimi ürəkdən sevirik, dəstəkləyirik, arxanızdayıq. Gözümüz televiziya ekranlarında Sizin çıxışlarınızı səbirsizliklə gözləyirik. Səlis nitqiniz isə sanki uzun müddət susuz qalmış qəlbləri rahatladır, bizi ruhlandırır. Var olun, cənab Prezident! Hər şeyə görə çox sağ olun!”

Bakı şəhər sakini **Yusif Bağırov:** “Hörmətli cənab Ali Baş Komandan, Sizi və əsgərlərimizi ürəkdən təbrik edirəm. Xalqımıza yaşatdığınız qürurlu və sevincli günlərə görə, çox sağ olun. Xalqımız tarixən çox igidlər və qəhrəmanlar yetirib, çox şərəfli döyüşlərdən çıxıb. Bu gün Azərbaycanın qəhrəmanlıq salnaməsinə yeni şanlı səhifələr yazılır. O səhifələr ki, baxdıqca baxmaq, oxuduqca oxumaq istəyirsən. Bu tarix çox güclü və qüdrətli müəllifin şah əsəridir. Allah Sizi və əsgərlərimizi qorusun, cənab Ali Baş Komandan. Biz Sizə və əsgərlərimizə güvənirik və həmişə Sizlərləyik”.

Yardımlı rayon sakini **Şaiq Zaidli:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizə ürəyimin dərinliklərindən gələn minnətdarlığımı ucqar dağ rayonu olan Yardımlıdan çatdırıram. Hər gün televiziya kanallarından ordumuzun işğaldan azad etdiyi əraziləri, düşmənin məhv edilmiş texnikalarını, qənimət alınmış silahlarını seyr etdikcə bu qələbənin memarı kimi Sizi alqışlayır, güclü, məğrur Azərbaycan əsgərinə “sağ ol!” deyirik. Neçə illik həsrətdən sonra Sizin sayənizdə torpaqlarımız işğaldan azad olunur. Yardımlı xalqı Sizinlə qürur duyur, Sizi dəstəkləyir və daim dəstəkləyəcək”.

Ağdaş rayonundan **Yunis Nəcəfov:** “Hörmətli Ali Baş Komandan, bu gün həm cəbhədə, həm beynəlxalq arenada uğurlarımızın yeganə səbəbkarı Sizsiniz. Bu qədər beynəlxalq təzyiq altında ordumuzun torpaqlarımızı azad etməsi birmənalı şəkildə qətiyyətinizin nəticəsidir. Sizin rəhbərliyiniz altında Silahlı Qüvvələrimizin şəxsi heyəti cəbhədə qəhrəmanlıq salnaməsi yazır. Cənab Prezident, Sizin də qeyd etdiyiniz kimi, Azərbaycanın üçrəngli bayrağı Qarabağda, Şuşada, Xankəndidə dalğalanacaqdır. Şəxsim və Ağdaş gəncləri adından əldə edilən zəfərlərə görə Sizə təşəkkür edir, möhkəm cansağlığı, uğurlar və daha böyük nailiyyətlər arzu edirəm”.

Qubadan **Diana Mirzəyeva:** “Hörmətli Prezident, cənab Ali Baş Komandanımız, müzəffər Azərbaycan Ordusunun möhtəşəm qələbələri münasibətilə Sizi və xalqımızı ürəkdən təbrik edirik. Sizin və güclü ordumuzun yanındayıq! Bu qələbələrlə general-mayor Polad Həşimovun və bütün şəhidlərimizin qisası alınır. Siz bizim Liderimiz olduqca xalqımız heç nədən qorxmadan, çəkinmədən yaşayacaq. Allah Sizi və ordumuzu qorusun”.

Bərdədən **Sara Məmmədova:** “Hörmətli cənab Prezident, mən bir zabit anası kimi Sizə öz təşəkkürümü və xalqın sevgisini bildirirəm, əsgər və zabit anaları Sizə və hər bir sözünüzə inanır. İnanırıq ki, Sizin yürütdüyünüz siyasət nəticəsində Azərbaycanın işğal olunmuş torpaqları tezliklə azad olunacaq. Allah Sizi var etsin, Azərbaycan naminə cansağlığı, uzun ömür bəxş etsin, daim sağlam və güclü etsin. Mən bütün ailə üzvlərim adından Sizə öz minnətdarlığımı bildirirəm. Sizinlə fəxr edirik. Qarabağ Azərbaycandır!”.

Cəbrayıl sakini **Dursun Balakişiyeva:** “Hörmətli cənab Prezident, bir Milli Qəhrəman anası olaraq Sizin cəsarətiniz qarşısında baş əyirəm. Çünki sayənizdə oğlumun şəhid olduğu doğma yurdum Hadrut qəsəbəsi düşməndən alındı. İnşallah, bütün Qarabağımız düşmən işğalından azad olunacaq və qələbə bayrağımız tezliklə Şuşada, Laçında dalğalanacaq. Şəhidlərimizin qisasını birə-beş aldığınız üçün xalqımız Sizin heykəlinizi ucaldacaq. Sizə, xalqımıza güc, cəsarət və uğurlar arzulayıram. Allah Sizi və xalqımızı qorusun!”.

Lənkərandan **Rizvan Dadaşov:** “Hörmətli Ali Baş Komandan, dövlətimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın yağı düşməndən azad edilməsi istiqamətində yürütdüyünüz haqlı siyasət bütün xalqın ürəyincədir. Sizin bu istiqamətdə atdığınız hər bir addımı dəstəkləyir, daim arxanızda olduğumuzu bildirmək istəyirik. Bu haqq savaşında Vətənimizə xidmət etməyi özümüzə böyük şərəf və borc bilirik. Allahdan Sizə, səngərdə riyakar düşmənlə üz-üzə duran igid əsgərlərimizə cansağlığı və davamlı qələbə sevincləri arzu edirəm. Qarabağ bizimdir! Qələbə bizimlədir!”





# İşğaldan azad edilən Suqovuşan Goranboyun əkin sahələrinə həyat verir

30 ilə yaxın işğal altında olan Suqovuşan kəndinin düşməndən azad edilməsindən sonra Tərtər və Yevlax rayonları ilə yanaşı, Goranboyun torpaqlarına da yeni həyat gəlib.





Artıq Suqovuşan su anbarından buraxılan suyun nizamlanması nəticəsində minlərlə hektar əkin sahəsinin davamlı olaraq suvarılması kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə təminat yaradıb.

Qeyd edək ki, işğaldan əvvəl Suqovuşan su anbarından gələn su ilə Goranboy rayonunun 6938 hektar əkin sahəsi su ilə təmin edilirdi. Lakin işğaldan sonra suyun qarşısının kəsilməsi rayonda kəskin ekoloji problemlər yaratmışdı. Azərbaycan Ordusunun əkshücum tədbirləri nəticəsində Suqovuşan kəndinin işğaldan azad edilməsi bu problemi birdəfəlik həll etdi. Hazırda anbardan buraxılan suyun nizamlanması nəticəsində Goranboyda ekoloji tarazlıq bərpa edilmişdir.

İndi rayonun ərazilərinə suyun verilməsi nəticəsində əkin sahələrinin davamlı suvarılması təmin edilmiş, bununla da kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə olunmasına və ekoloji tarazlığın bərpa edilməsinə təminat yaranmışdır. Bundan başqa, bu ərazilərə suyun öz axını ilə verilməsi ərazidə mövcud olan subartezian quyularının istifadəsinə də tələbatı azaltmışdır.

Məlumdur ki, ölkəmizin aqrar sektorunda ən ciddi problemlərdən biri suya olan tələbatın ödənilməsi ilə bağlı yaranan çətinliklərdir. Bu baxımdan Goranboy da sudan korluq çəkən rayonlar sırasındadır. Doğrudur, hər il rayonda subartezian quyuları qazılaraq istifadəyə verilmişdir. Lakin bu, su problemini qismən aradan qaldırmışdır.

Döyüş bölgəsində yerləşən Goranboyun kəndləri hazırda düşmən tərəfindən daim mərmi atəşinə məruz qalır. Çoxlu dağıntılar olmasına baxmayaraq, əhali düşmənin heç bir təxribatına əhəmiyyət vermir, gündəlik qayğıları ilə yaşayır.

Qayıdaq Suqovuşana. Eyniadlı su anbarından götürülən su rayonun əsasən Əlirzalı, Qızılhacılı, Balakürd, Boluslu və Yeniyol kəndlərindəki əkin sahələrinin suvarılmasını təmin edəcək. Sakinlərin bildirdiyinə görə, bir vaxtlar bol sulu Tərtər çayı 30 ilə yaxın düşmən işğalında qaldığı üçün torpaqlar su çatışmazlığı ucbatından əkilib-becərilmirdi. İnsanlar problemi əsasən xırda arxlardan və artezian quyularından götürdükləri su ilə aradan qaldırmağa çalışırdılar. Lakin bu, bəs etmirdi, sahələri suvarmaq üçün su çatışmazlığı vardı. Nəticədə əkilən məhsullar ya məhv olur, ya da az məhsul olurdu. Bu gün isə həmin kəndlərdə yaşayan əhalinin sevinci hədsizdir.

Qızılhacılı kəndinin sakini, fermer Afiq İsgəndərov söhbət zamanı dedi ki, indiyəcən hər il 20 hektarda pambıq, 150 hektarda taxıl, 70 hektarda yonca, 10 hektarda xəsil, 5 hektarda isə meyvə yetişdirirdi: “Əslində buna yetişdirmək demək də olmazdı. Çünki istehsal olunan məhsul çəkilən xərci güclə ödəyirdi. Ancaq başqa yol da yox idi. Mən torpaq adamıyam. Ata-babadan əkin-biçinlə məşğul olmuşam. Məhsuldarlıq az olanda gözümün qarşısına Suqovuşandakı su anbarı gəlirdi. Fikirləşirdim ki, görəsən nə vaxtsa həmin anbarın suyundan istifadə edə biləcəyəmmi. İndi şükürlər olsun. Ordumuzun şücaəti sayəsində digər strateji şəhər və kəndlər kimi Suqovuşan da işğaldan azad edilib. Mənə belə gəlir ki, bundan sonra su sarıdan korluğumuz olmayacaq. Su olan yerdə isə həyat var, məhsul var”.

Suqovuşanın suyundan istifadə edəcək kəndlərdə əhalinin sayı da çoxdur. Məsələn, Əlirzalı kəndində 1247, Qızılhacılıda 7931, Xanqərvənddə 4516, Bolusluda 3084, Yeni Yol kəndində 1744, Balakürddə isə 2 mindən çox əhali yaşayır. Demək olar ki, onların hamısının əsas məşğuliyyəti əkin-biçin və heyvandarlıqdır.

Xanqərvənd rayonda ən çox kənd təsərrüfatı məhsulları istehsal edən kəndlərdəndir. Hər il kənd sakinləri 320 hektarda buğda, 420 hektarda arpa, 940 hektarda yonca, 60 hektarda qarğıdalı, 95 hektarda günəbaxan, 20 hektarda xəsil, 10 hektarda kartof, 150 hektarda isə pambıq əkirlər. Kənd icra nümayəndəsi əvəzi Rəsul İsmayılov deyir ki, Suqovuşanın düşmən işğalında olması əkin sahələrimizi susuz qoymuşdu. Nəticədə məhsuldarlıq aşağı olurdu. İndi bütün kənd sakinləri sevinc içərisindədirlər. Artıq əkin sahələrinin suvarılmasında yaranan problem həll edilmişdir.

Xanqərvəndli fermer Rəfail Muradov, Elman Rüstəmov və başqaları gələn il məhsuldarlığın artacağına əminlik ifadə etdilər. Dedilər ki, gələn il builki göstəriciləri təzələmək üçün əlimizdə geniş imkanlar olacaq. Kəndli bilir ki, bol su bol məhsul deməkdir. Artıq bol suyumuz var. Dövlətin göstərdiyi digər imtiyazlardan da istifadə etməklə gələn il uğurlu göstəricilərə nail olacağıq.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# “Evimiz dağılsa da, elimizi, obamızı tərk etmirik”

Erməni vandalizminə ən çox məruz qalan yaşayış məntəqələrimizdən biri də Füzuli rayonunun Şükürbəyli kəndidir.









Azərbaycanın mübariz ordusu qarşısında tab gətirməyən və əldə olunan humanitar atəşkəs rejiminə əməl etməyən erməni hərbçilər hər fürsətdə bu kəndi ağır artilleriya və raketlərlə atəşə tutur, əli silahsız dinc əhalini hədəf alır. AZƏRTAC xəbər verir ki, kənd sakinləri düşməndən qorxmur və mərd-mərdanə öz yurdlarında yaşayırlar.

Erməni faşistlərinin təxribatı nəticəsində kənddə onlarla ev dağılıb, sosial obyektlər sıradan çıxıb, təsərrüfatlara xeyli ziyan dəyib.

Kənd sakini Xalidə Məmmədova söhbət zamanı bildirib ki, düşmən kəndi hədəf almaqla sakinləri qorxutmaq, təlaş yaratmaq istəyir: “Biz öz kəndimizdəyik. Dinc əhaliyə qarşı təxribatlar törətmək erməni quldurlarının adətidir, çünki erməni bizim ordumuzdan qorxur. Biz güclü ordumuza arxayınıq. Evimiz dağılsa da, elimizi, obamızı tərk etmirik”.

Cəlal Qasımov da bu kəndin sakinidir. O da oz doğma yurdlarından bir yerə getməyəcəklərini deyib. “Biz öz doğma kəndimizdəyik, heç yerə getmək fikrimiz yoxdur. Hər ötən gün məğlubiyyətə uğrayan ermənilər kimdir ki, biz onlardan qorxaq. Allah ordumuzu qorusun və yaxın günlərdə bütün torpaqlarımız işğaldan azad olunsun. Biz inanırıq ki, qələbə günü çox yaxındadır”.

# *Ermənistanın müharibə cinayətləri:* məktəblər və uşaq bağçaları hədəfə alınır





Ermənistan silahlı bölmələri cəbhəyanı yaşayış məntəqələrində dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, sosial təyinatlı binaları hədəfə almaqda davam edir.

AZƏRTAC xəbər verir ki, erməni hərbçilərinin yaşayış məntəqələrini intensiv atəşə tutulması nəticəsində yaşayış evləri, inzibati binalar, elektrik və qaz təsərrüfatı ilə yanaşı, sosial obyektlərə, o cümlədən məktəblərə və uşaq bağçalarına da ziyan dəyir. Ermənistan törətdiyi müharibə cinayətləri ilə mülki insanlara, o cümlədən uşaqlara qarşı terror vasitələrindən istifadə etdiyini və beynəlxalq humanitar hüququ kobudcasına pozduğunu nümayiş etdirir. Düşmənin ağır artilleriyadan atəşi nəticəsində sentyabrın 27-dən indiyədək Tərtər şəhərində, rayonun qəsəbə və kəndlərində ümumilikdə 12 orta məktəb, 1 musiqi məktəbi, 1 peşə ixtisas məktəbi, 3 uşaq bağçasına ziyan dəyib.





Cəbhə bölgəsindən reportaj








# Ağdam düşmənə yenə də göz dağıdır



## Erməni faşistlərinin raket və artilleriya atəşləri altında qorxmadan yaşayan ağdamlılar Ali Baş Komandana və Ordumuza güvənir



**Yolumuz Qarabağa, Ağdamadır... O Ağdam ki, hələ ötən əsrin 90-cı illərində işğalçı Ermənistanın hərbi təcavüzünə qarşı Qarabağ uğrunda savaş başlayan zaman hadisələrin, ən şiddətli döyüşlərin episentri olub. Müharibənin bütün ağrılarını və ağırlıqlarını çiyinlərində daşıyan Ağdam düşmənə qarşı ciddi müqavimət göstərib. Savaş meydanında 6 minədək şəhid verib. Şəhidlərindən 16 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Doğma yurdlarından köçkün düşən rayon əhalisinin əksəriyyəti ölkənin müxtəlif bölgələrinə səpələnib.**



27 il öncə, 1993-cü il iyulun 23-də rayon işğal olunarkən 1154 kvadrat kilometr ərazisinin 76,4 faizi düşmən əlinə keçib. İndi rayonun cəmi 23,6 faiz ərazisi Azərbaycanın nəzarətindədir.

Bu gün yenə də Ağdam atəş altındadır. Erməni faşistləri sentyabrın 27-dən başlayaraq rayonun yaşayış məntəqələrini ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir. Bu zərbələr nəticəsində mülki əhali arasında həlak olanlar, ağır yaralananlar da var. Minlərlə ev dağıdılıb. Ancaq hər zaman olduğu kimi bu gün ayaqdadır ağdamlılar...

Elə səfərimizin məqsədi də erməni vandalizminə şahidlik etmək, atəş altında mətin dayanan əhalinin durumu ilə maraqlanmaq idi...

### Top, raket atəşlərinin səsinə vərdiş edən əhali

Rayonun mərkəzi sayılan Quzanlı qəsəbəsindəyik. Lap yaxınlıqda top atəşlərinin səsi eşidilir. Qəsəbənin müxtəlif ərazilərinə raket zərbələri endirilir. Maraqlıdır ki, bu hal məhz Ermənistanın terrorçu rəhbərliyinin xahişi ilə cəbhədə elan edilən humanitar atəşkəsdən sonra yaşanır. Yəni erməni faşistləri atəşkəs rejiminə qəti şəkildə əməl etmirlər.

Ancaq bu durumda da yerli əhalinin - istər uşaq olsun, istərsə də ahıl insanların çöhrələrində heç bir qorxu, təlaş hiss olunmur. Onlar üçün adi hala çevrilib bu vəziyyət.

Rəsmi məlumata əsasən, sentyabrın 27-indən bu günə qədər ermənilər Ağdam ərazisinə 6 mindən artıq mərmi və raket atıb. Bunun nəticəsində 6 mülki şəxs həlak olub, 33 nəfər ağır yaralanıb. 441 tikiliyə ciddi ziyan vurulub. Onlardan 373-ü mənzildir. Mənzillərdən 48-i tamamilə dağılıb, 325 evə isə ziyan dəyib. 13 ticarət, 15 sosial, 5 ictimai-iaşə obyektinə, 3 inzibati binaya mərmi düşərək yararsız hala salıb.

Quzanlıya alış-veriş üçün gələn Xındırıstan kəndinin sakini Zabit Hüseynov deyir ki, ağdamlılar artıq bu duruma vərdiş ediblər: "27 ildir bu səsləri hər gün eşidirik. Kəndlərimizin atəşə tutulmadığı gün olmayıb. İndi Azərbaycan Ordusu erməni silahlılarına divan tutur. Həmişə olduğu kimi, yenə də erməni terrorçuları mülki əhalini hədəf seçir. Sentyabrın 27-dən başlayaraq işğal olunmuş kəndlərimizdən gecə-gündüz mülki əhalinin üstünə artilleriya mərmiləri atırlar. Həlak olanlarımız var. Xeyli sayda adam yaralanıb. Dişimizlə, dırnağımızla tikib-qurduğumuz evləri dağıdırlar, yandırırlar. Amma camaat rayondan çıxmır. Böyükdən kiçiyə hər kəs Ali Baş Komandan İlham Əliyevə inanır. Prezidentimizin bizə etdiyi müraciətlər hər kəsi qürurlandırıb".



Söhbət zamanı bəlli olur ki, raket hücumları daha çox rayonun Xındırıstan, Zəngişalı və Çəmənli kəndlərinə ciddi ziyan vurub. Həmçinin Ağdamın məcburi köçkün düşmüş vətəndaşları üçün 2010-cu ildə Quzanlıda tikilib istifadəyə verilən 689 mənzilli qəsəbəyə də zərbələr endirilir. Səhər saatlarında mərmi atəşləri nəticəsində bir ev tamamilə yanıb. Xoşbəxtlikdən mənzilin sakinləri evdə olmayıblar.

### Erməni vandalizminin əyani sübutu

Avtomobilə əyləşib qəsəbəyə üz tuturuq. Bura məcburi köçkünlər üçün salınan ilk qəsəbələrdən biridir. Hər kəs evində-eşiyindədir. Səhər saatlarında raketlə dağıdılan 153 saylı ev rayonun Güllücə kəndindən məcburi köçkün olan Məhəmməd Vəliyevə məxsusdur.

Evə raket düşərkən 8 nəfər ailə üzvü xoşbəxtlikdən qarşıdakı sığınacaqda yerləşdikləri üçün xəsarət almayıblar. Ancaq baş verən yanğın nəticəsində ev bütün əşyalar daxil olmaqla tamamilə yanaraq kül olub.

Taleyin acı qismətidir sanki...

Doğma yurdundan didərgin düşüb çətin durumda yaşaya-yaşaya yenidən özünə həyat qurasan, erməni vandallarının terror aktı nəticəsində ikinci dəfə evindən qaçqın düşəsən. 27 il öncə olduğu kimi, bir əyin libasından başqa heç nəyin qalmaya...

Dəhşətli, ürək dağlayan mənzərədir...

Vəliyevlər ailəsinin mənzilinə düşən raketin qəlpələri qonşuluqda yaşayan 28 yaşlı Elçin Rzayevi yaralayıb.

Çəkiliş apararkən xəstəxanadan qayıdan Elçinlə təsadüfən görüşdük. Sarıcalı kəndindən məcburi köçkün olan gənc evinin ətrafına 2 raket düşdüyünü dedi: "Heyvanları sulayıb bayıra çıxdım. Yola tərəf getdim ki, kimləsə görüşüb söhbətləşim. Birdən raketin eniş səsini eşitdim. Biri düşdü, amma partlamadı. Ardınca ikincisi düşəndə mən kənara tullandım, amma partlayış çox güclü oldu. Divardan qayıdan qəlpələr sağ ayağıma girdi. Dəhşətli ağrı başladı, əlimlə ayağımdan bərk sıxsam da bütün paltarım al-qana boyandı. Yeriyə bilmədim. Sürünə-sürünə yola tərəf getdim, dedim ki, bəlkə kimsə məni yolun kənarında görüb xəstəxanaya aparar. Qanım çox axırdı. Qulağımdan da qan gəlirdi. Huşumu itirirdim yavaş-yavaş. Bir maşın saxladığını gördüm, amma daha sonrasından xəbərim olmadı. Ayılanda xəstəxanada idim. Dedilər ki, 3 nəfər oğlan səni gətirib. Ayağımdan 3 qəlbə çıxardı həkim. Dedi ki, deyəsən, qulağımın pərdəsi də deşilib zərbə səsindən. Sabah müayinə üçün xəstəxanaya getməliyəm".

Qəsəbədə yaşayan Leyla Quliyevaya məxsus ev də raket atəşindən darmadağın olub. Evdə yaşamaq qeyri-mümkün olduğu üçün rayon icra hakimiyyəti ailə üzvlərini müvəqqəti sığınacaqda yerləşdirib. Mənzilə raket zərbəsi düşərkən 41 yaşlı qəsəbə sakini Əlizamin Hüseynov ağır yaralanıb.

Göründüyü kimi ordumuzla bacaramayan erməni, faşistlərinin gücü dinc əhaliyə çatır. Humanitar atəşkəs elan olunsa da, onların intensiv artilleriya atəşləri susmaq bilmir.

### "Erməni mərmisi bizi qorxutmur, heç yerə gedən deyilik"

Əldə etdiyimiz məlumata görə, Qarabağda antiterror əməliyyatları başlanan gündən Ağdam Rayon İcra Hakimiyyətində operativ qərargah yaradılıb. Sakinlər baş verən bütün hadisələrlə bağlı qərargaha məlumat verirlər və dərhal tədbirlər görülür.




Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov qəsəbədə və atəş altında olan digər kəndlərdə vəziyyəti mütəmadi olaraq öyrənir, əhali ilə görüşərək onlara mənəvi dəstək verir və raket hücumundan evləri dağılan sakinlərə lazımi kömək göstərilməsi üçün tapşırıqlar verir.



Elə qəsəbədən çıxıb Xındırıstan kəndi istiqamətinə yollandıqda da təsadüfən belə bir mənzərənin şahidi olduq. Vaqif Həsənov kəndin bir neçə ağsaqqalı ilə söhbət edirdi. Kənarda durub müşahidə apardıq. Sakinlərə mənəvi dəstək verən rayon icra hakimiyyətinin başçısı dövlətin hər zaman onların yanında olduğunu, bütün məsələlərin diqqətdə saxlanıldığını söyləyirdi. Sakinlər də ona öz razılıqlarını ifadə edirdilər. Hər kəsi maraqlandıran məsələ isə humanitar atəşkəsin elan olunduğu zamanda Ermənistan tərəfinin buna nədən əməl etməməsi idi. Vaqif Həsənov onların diqqətinə çatdırdı ki, Azərbaycan Ordusu antiterror əməliyyatlarını dayandırsa da, işğalçı ölkə yenə də öz terrorçu xislətindən, faşist əməllərindən əl çəkmir. Ona görə də ehtiyatı əldən vermək olmaz. Hər kəs diqqətli olmalı, baş verən bütün hadisələrlə bağlı dərhal qərargaha məlumat verilməlidir. Söhbət zamanı o da bəlli oldu ki, raket hücumlarından evləri dağılan sakinlər müvəqqəti olaraq sığınacaqlarda yerləşdirilirlər.









Sonra biz də sakinlərə yaxınlaşıb xeyli söhbətləşdik. Kənd sakini, 62 yaşlı Məhərrəm İmanov deyir ki, hazırda cəbhədə vəziyyət gərgin olsa da, onlar heç nədən qorxmurlar. Hər kəs öz işində-gücündədir. Amma sahələrdə işləmək bir qədər təhlükəlidir. Çünki erməni faşistlərinin atdığı raketlər yaşayış evləri ilə yanaşı, sahələrə də düşür. Partlamayan raketlər də olur. Dərhal qərargaha xəbər verirlər və aidiyyəti orqanların əməkdaşları gəlib mərmiləri zərərsizləşdirirlər.

Kənd sakini Rəhman Abdullayevin sözlərinə görə, hər gün kəndlərə ağır artilleriya mərmiləri atırlar. Ermənilər bununla əhalini qorxuya, təlaşa salmaq istəyirlər: "Ordumuzla bacarmırlar, mərmini əliyalın əhalinin evinə atırlar. Evlərimizi, kəndlərimizi ağır toplarla vururlar. Amma bu, bizi qorxutmur, heç bir yerə gedən deyilik.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov tez-tez bizə baş çəkir, hal-əhval tutur, nə kömək lazımdırsa göstərir. Bu da, əhaliyə ruh yüksəkliyi verir, dövlətə inamı daha da artırır".

Rəhman kişi inanır ki, Qarabağda başlayan Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnəcək. İnşallah, yaxın günlərdə Ağdamın da işğal altında olan bütün əraziləri erməni tapdağından təmizlənəcək və böyük qələbə günü qeyd ediləcək.

### "Mərmi yağışı" altında bişirilən təndir çörəyi

Bu rayonda hər kəs ümidlidir, hamı qələbəyə köklənib. İnsanlar ağır müharibə şəraitində yaşasalar da, nikbindirlər, ümidlidirlər. Cəbhədən gələn hər xoş xəbər onlarda ruh yüksəkliyi yaradır.

Yol kənarında şahidi olduğumuz bir mənzərə isə ürəyimizi dağa döndərdi. Belə bir gərgin durumda, "mərmi yağışı" altında bir ana təndir qalayıb çörək bişirir. Ayaq saxlayıb söhbətləşirik.

Mədinə xanım neçə illərdir bu təndirin hesabına dolandıqlarını deyir: "Bu, bizim çörək təknəmizdi. Halal zəhmətimizlə çalışıb dolanırıq. Heç bir təhlükədən qorxmuruq. Allah düşmənə lənət eləsin, dinc vaxtımız yoxdur. Neçə gündür gecələr də yatmırıq. Göydən mərmi yağışı yağır sanki. Camaatın illərlə tikib qurduğu evləri dağıdırlar.

Qulağımız hər gün səsdədi. Cəbhədən xoş xəbərlər eşidəndə sevincimdən ağlayıram. İndi, görün, Ağdamın tamamilə işğaldan azad edildiyi xəbərini eşidəndə halım necə olacaq, təsəvvür edə bilmirəm... Təki, tezliklə o xoş xəbəri eşidim, ondan sonra nə olur-olsun. 27 ildir bu vəziyyətdəyik. Amma, ürəyimə damıb ki, bu, çox çəkməyəcək. Qələbəyə lap az qalıb. Tezliklə, ordumuz erməniləri torpaqlarımızdan tamamilə qovub çıxaracaq. Ağdam da erməni murdarlarından təmizlənəcək. Hamı Prezident İlham Əliyevə inanır. Tez-tez xalqa müraciət edib müjdəli xəbərlər verəndə elə sevinirik ki..."

Bəli, işğala məruz qalsa da, minlərlə şəhid versə də, bu gün "mərmi yağışı" altında olsa da, yenə düşmənə göz dağıdır Ağdam. İllərdir uşaq qatilləri, terrorçularla üz-üzə yaşayan zəhmətkeş əhalisi ayaqdadır hər zaman. Onlar da hamı kimi Ali Baş Komandan İlham Əliyevin verəcəyi böyük qələbə müjdəsinə kökləniblər.

Ağdamda şahidi olduğumuz bu xoş mənzərə həqiqətən də qürurvericidir. Hər kəs qələbə ab-havasındadı və inanırlar ki, İlham Əliyevin müzəffər ordusu yaxın günlərdə Ağdam şəhərinin mərkəzində, dağlar qoynundakı Gülablıda Azərbaycan bayrağını dalğalandıracaq və o torpaqların didərgin ruhları əbədi rahatlıq tapacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***







# Humanitar atəşkəsin antihumanist qatilləri





## Tarix dəyişsə də, erməni xisləti dəyişmir

Hədəfdə yenə dinc sakinlərdir... Ermənistan silahlı qüvvələri müxtəlif istiqamətlərdən Azərbaycanın nəinki cəbhə bölgələrini, döyüş ərazilərindən uzaqda olan yaşayış yerlərini belə güllələbaran edirlər. Oktyabrın 11-də gecə saat 2 radələrində Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə Azərbaycanın ikinci böyük şəhəri - qədim və gözəl Gəncə hədəf seçildi. 500 mindən çox əhalisi olan bu şəhər də cəbhə bölgəsindən xeyli uzaqdır.

Həmin gecə dinc sakinlər düşəmin fitnəsindən xəbərsiz öz evlərində ikən raket atəşinə məruz qaldılar. 4-ü qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralandı. 10-dan artıq çoxmənzilli binaya, eləcə də 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəydi.

Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində, ümumilikdə mülki şəxslərdən 3-ü uşaq olmaqla 42 mülki şəxs həyatını itirib, 206 nəfər yaralanıb. Həmçinin Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1479 ev, 241 mülki obyekt və 66 çoxmərtəbəli yaşayış binası yararsız vəziyyətə düşüb.

Erməni faşistləri həm də amansız uşaq qatilləridirlər. Onlar məktəblərə, uşaq bağçalarına ağır artilleriya zərbəsi endirirlər. Təhsil Nazirliyi düşmən tərəfindən hədəfə alınan azərbaycanlı məktəblilərin adlarını və erməni təcavüzü nəticəsində dağıntılara məruz qalan təhsil müəssisələrinin siyahısını açıqlayıb.

Nazirlikdən bildirilib ki, düşmən təcavüzü nəticəsində 3 məktəbli - Naftalan şəhəri, Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin IX sinif şagirdi Fidan Qurbanova, Naftalan şəhəri, Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin VII sinif şagirdi Şəhriyar Qurbanov və Ağcabədi rayonu, R.Quliyev adına Taynaq kənd orta məktəbinin IX sinif şagirdi Fərid İsgəndərov həlak olub.

Eyni zamanda Gəncə şəhərinin bombalanması nəticəsində məktəblilər - Banu İbrahimova, Fərid İbrahimov, Turqay Əliyev, İlyas Həsənbəyli, Məleykə Abdullayeva, Ömər Mehdiyev, Səlim Mustafazadə, Murad Cavadov, Dinarə Muradova, Rauf Muradov, Hüseyn Əliyev, Sevinc Rəhimova, Aysu Əliyeva, Şəmiddin Şirinov, Şəfa Şirinova yaralanıblar.

Nazirlikdən verilən məlumata görə, düşmənin təcavüzü nəticəsində ümumilikdə, 37 məktəb dağıntılara məruz qalıb. Bunlar Tərtərdə 12 məktəb, Ağdamda 11 məktəb, Gəncədə 5 məktəb, Füzulidə 4 məktəb, Goranboyda 3 məktəb, Bərdə və Ağcabədidə 1 məktəbdir.

Bu günlərdə baş verən faciəli hadisələr bir daha təsdiq edir ki, tarix dəyişsə də, erməni xisləti dəyişmir. XX əsrin əvvəllərində də, ortalarında da, sonlarında da həmin bu xislətlə, bu vəhşiliklə ermənilər xalqımıza divan tutdular. Bu mənfurlar üçün fərqi yoxdur ki, qarşılarındakı uşaq, qadın, qoca, cavandır. Onlar azərbaycanlı olan hər kəsə amansızdırlar. Ən dəhşətlisi isə budur ki, heç zaman öz əməllərindən peşman olmurlar, xəcalət çəkmirlər.

XX əsrin axırlarında əvvəlcə Ermənistan SSR-in ərazisinə çevirdikləri əzəli Azərbaycan torpaqlarından yerli sakinləri son nəfərinədək qovdular. 1988-ci ildə doğma yurdlarından zorla çıxarılan soydaşlarımızdan 23-ü uşaq olmaqla 216 nəfəri qətlə yetirdilər. Hadisələrin ardınca Dağlıq Qarabağı odlara qaladılar. Mərmi salmadıqları ocaq, dağ çəkmədikləri ailə buraxmadılar.

XX əsrin sonuncu onilliyində başlayan Birinci Qarabağ müharibəsi zamanı erməni faşistləri onlara tarixi ərazilərində yaşamaq üçün yer, süfrələrində yemək verən Azərbaycan xalqının yaxşılıqlarının əvəzini hər cür yamanlıq etməklə verdilər. Sovet imperiyasının dağıldığı, siyasi, iqtisadi, sosial vəziyyətin gərginləşdiyi dövrü əllərinə düşən girəvə bildilər. Göstərdilər ki, göz dikdikləri yalnız torpaqlarımız deyil. Xaricdən güc alaraq ərazilərimizi işğal etmək planlarının bir hissəsi oldu. Müharibə sözünü tələffüz belə edə bilməyən körpələrimizə, hamilə qadınlarımıza, qocalarımıza aman vermədilər.

Birinci Qarabağ müharibəsində erməni vəhşilikləri nəticəsində Azərbaycan tarixinə misli-bərabəri görünməmiş faciələr yazıldı. Ermənilərin Xocalıda törətdikləri vəhşiliklər isə yalnız bizim deyil, bütün bəşəriyyətin tarixinə qanlı səhifə kimi yazıldı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalıda qətliam törətdilər. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralandı. 1275 nəfər əsir götürüldü. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

1994-cü ildə atəşkəs elan olundu. Ancaq Ermənistan dövləti öz mənfur əməllərindən əl çəkmədi. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusu, eləcə də dinc sakinlərimiz mütəmadi atəşə tutuldular. Azərbaycan balalarından kimisi 9 yaşlı Fariz Bədəlov kimi həyətdə oynayarkən, kimisi 2 yaşı tamam olmamış körpə Zəhra kimi nənəsi ilə birlikdə qətlə yetirildi. Elə ailələr oldu ki, bütövlükdə erməni vandalları tərəfindən məhv edildi.

Oktyabrın 11-də gecə saat 2-də Gəncədə xalqımıza qarşı törədilən növbəti qanlı terror aktından xəbər tutan dünya ölkələri erməni vəhşiliyinə heyrətlənir. Amma heyrətlənmək, dəhşətə gəlmək, hətta qınamaq da yetməz. Unutmaq olmaz ki, o insanlar döyüşçü, əsgər deyildilər. Öz evlərində, doğmaları ilə birlikdə yaşayan dinc sakinlər gecənin birində Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmrini yerinə yetirən erməni ordusunun raket atəşinə məruz qalaraq kimi həyatı ilə vidalaşdı, kimisi isə doğmalarını və sağlamlığını itirdi. Gəncədə erməni vandallarının törətdikləri terror aktına dünyanın əmin-amanlığını arzulayan, ədalətini və haqsevərliyini qoruyan heç bir dövlət laqeyd qalmamalıdır. Xocalı soyqırımına susmuş bəşəriyyət bu dəfə dilə gəlməlidir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azərbaycan qaniçən faşistlərlə üz-üzədir

### Ermənistan dinc əhaliyə qarşı qadağan olunmuş mərmilərdən də istifadə edir

**Nə az-nə çox 200 ildir ki, dəqiq tərifini vermək son dərəcə çətin olan bir düşmənlə yan-yana yaşamışıq. Ötən dövrdə erməni adlı bu qonşudan nələr görməmişik?! Tarix kitabını ötəri vərəqləyəndə tükürpərdici mənzərələrlə üz-üzə qalırıq.**

İnsanlıqdan çox-çox uzaq bu məxluqa adam deməyə dil gəlmir: erməni qonşusunun belinə qaynar samovar bağlayır, dünənəcən yaltaqlandığı türkün balalarını borunun içinə doldurub iki ucdan qaynaqlayır, körpə uşağı anasının qucağından alıb tonqala atır, bir vaxtlar "qardaş" dediyi, ağız-ağıza öpüşdüyü adamın kəlbətinlə dişlərini, dırnaqlarını çıxarır, diri-diri basdırır...

Beləsinə hansı tərifi vermək olar? Bəlkə də, erməniyə tərif quraşdırmaq olar, amma çox uzun alınar, əzbərləmək çətin olar. Ona yapışmış sözlər çoxdur: əxlaqsız, abır-həyasız, nankor, qəddar, qan hərisi, cəllad, faşist... Özü də tərifin məzmunu illər keçdikcə "zənginləşir", yeni-yeni əcaib cizgilər ehtiva edir.

Nə qədər təəssüfedici olsa da, dünya bina olandan bəri bəşər zaman-zaman müharibə kimi faciə yaşamalı olur - günahlı, günahsız insanlar ölür, şəhərlər, kəndlər xarabalığa çevrilir, analar, bacılar göz yaşı tökür, yetim uşaqlar valideyn üzünə həsrət qalırlar. Amma müharibənin də yazılmış, yazılmamış qayda-qanunları var. Heç kim beynəlxalq qanunvericilikdən kənara çıxmamalıdır, kənara çıxan cəzalandırılmalıdır. Müharibədirsə, ordu ordu ilə vuruşmalıdır, silah mülki əhaliyə tuşlanmamalıdır, dinc insanlar imkan daxilində zərər çəkməməlidir.

Ancaq bütün bunlar elə bil ki, Azərbaycan xalqının qanına susamış erməni təcavüzkarına aid deyil. 1988-ci ildən bəri növbəti dəfə belə bir düşmənlə qarşılaşmışıq ki, onu başqaları yalnız xəyalında canlandıra bilər. Əvvəlcə havadarlarının birbaşa köməyi ilə əzəli torpaqlarımızı işğal edib yüz minlərlə həmvətənimizi yurd-yuvasından didərgin saldı. Bu azmış kimi, yüzlərlə yaşayış məntəqəsini yer üzündən sildi. Belə bir şey on milyonlarla adamın ölümünün baiskarı Hitler kimi superfaşistin də ağlına gəlməmişdi. Hitlerçi faşistlər erməni faşistləri ilə müqayisədə, necə deyərlər, toya getməli idilər.

Erməni qəddarlığının, qaniçənliyinin hədd-hüdudu yoxdur. İndi də düşmən bacara bilmədiyi, ard-arda sarsıdıcı zərbə aldığı Azərbaycan əsgərinin qisasını dinc sakinlərdən almaq xətti götürmüşdür: şəhərlərimiz, kəndlərimiz mütəmadi olaraq ağır silahlardan atəşə tutulur, heç bir günahı olmayan vətəndaşlarımız, o cümlədən qocalar, qadınlar və uşaqlar həlak olurlar, yaralanırlar. Gəncə kimi böyük şəhərin sakinlərini gecə, yuxuda olarkən yalnız insan sifətini tamamilə itirmiş düşmən raketlə vura bilərdi. Ermənistan ordusunun dinc əhaliyə qarşı bu hərəkəti xalis terror aktıdır. Beynəlxalq hüquqa, insanlığa meydan oxuyan erməni həyasızlığı o həddə gedib çıxmışdır ki, İrəvan rejiminin təmsilçiləri dinc sakinləri qəsdən hədəf aldığını az qala təntənəli şəkildə bəyan edirlər - məqsəd əhali arasında panika yaratmaqdır.

Düşmən bütün bunlarlar kifayətlənməyib cəbhədən çox-çox uzaqda yaşayan azərbaycanlılara qarşı tamamilə qadağan olunmuş silahları işə salır. Əldə olan məlumata görə, erməni təcavüzkarı dinc əhaliyə atdığı raketlərdə kaset döyüş başlıqlarından istifadə edir. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) Goranboy rayonunun ərazisində apardığı araşdırma nəticəsində iki məntəqədə kasetli mərmi aşkarlamışdır. Bundan əvvəl Beyləqan rayonunda da kaset bombalarının çanaq hissəsi tapılmışdır.

Kasetli bombalar qadağan olunmuş silahlar sinfinə daxildir. Belə bombalar insan orqanizmi üçün olduqca zərərlidir. Bu bombalar çoxlu sayda kiçik bombalardan ibarətdir və məhz bu xüsusiyyətinə görə böyük əraziləri dağıda bilir. Ona görə 1949-cu il tarixli Cenevrə Konvensiyasına uyğun olaraq, belə bombaların yaşayış məntəqəsinə, dinc əhaliyə atılması qadağandır. Odur ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrinə, insanların sıx yaşadığı ərazilərə kasetli bomba atması hərbi cinayət kimi tövsif olunmalıdır.

Erməni işğalçıları torpağımızda başqa bir qadağan olunmuş silah da sınayıblar. ANAMA-nın xüsusi mobil əməliyyat qrupu Füzuli rayonunun ərazisində apardığı əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlamışdır. Mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) var. Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır. Beləliklə, düşmən başqa bir müharibə cinayətinə çirkin imza atmışdır.

Dünya illərdir xalqımıza qarşı törədilən saysız-hesabsız cinayətləri görməzdən gəlir, özünü kor-lal kimi aparır. Acı həqiqət budur ki, kim güclüdür, o da haqlıdır.

Ona görə də vur, Azərbaycan əsgəri, vur! Qarşına çıxmış qaniçən erməni faşistləri dil kimi yalnız sənin zərbəni başa düşürlər!

*Allahverdi MEHDİYEV,*
*"Azərbaycan"*

# İkinci Xocalı

## Ermənistanın Gəncə cinayəti Azərbaycan xalqına qarşı törədilən növbəti soyqırımıdır

*Əvvəli 1-ci səh.*

Ermənilər xarakterlərindəki hiyləgərlik, riyakarlıq, namərdlik, zalımlıq kimi insanlığa yaraşmayan xüsusiyyətlərinə xas olaraq günahsız insanları hədəf seçir, güclərini qocaların, qadınların, uşaqların üzərində sınamaqla öyünürlər. Bu onların xislətidir.

Məşhur britaniyalı jurnalist, "Qara bağ" kitabının müəllifi Tomas de Vaalın 2000-ci ildə o vaxtki Ermənistan prezidenti Serj Sarkisyandan aldığı müsahibədən kiçik bir hissəyə diqqət yetirək: "Xocalı hadisələrinədək azərbaycanlılar elə bilirdilər ki, biz onlarla zarafat edirik. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq".

Ermənilərin xislətini aydın şəkildə gözlər önünə sərən bu qan donduran cümlələrə əlavə şərh yazmağa ehtiyac yoxdur...













### Ermənistanın dövlət siyasəti insanlığa qarşı cinayətlərə, terror hadisələrinə köklənib

Azərbaycan xalqı heç bir zaman sülh yolundan, barışıqdan vaz keçməyib. Genetikasında özünə yer etmiş humanizm prinsiplərindən çıxış edərək, münaqişələrin ədalətli formada, qan tökülmədən, danışıqlar vasitəsilə həlli yoluna üstünlük verib.

Elə son onilliklərdə də Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində aparılan müzakirələr Ermənistanın pozuculuq fəaliyyəti sayəsində nəticəsiz qalıb. Onlar uydurma "dənizdən dənizə böyük Ermənistan" xülyasından sərsəmləmiş halda dayanmadan insanlığa qarşı cinayətlər, terrorlar həyata keçirir, yalvararaq müvəqqəti sığınacaq aldıqları bütün əraziləri özlərininki hesab etmək kimi xəstə düşüncələrə qapılırlar. Beynəlxalq hüququn norma və prinsiplərinə zidd siyasət aparan işğalçı Ermənistan diplomatik danışıqları da birmənalı olaraq rədd edir. Eyni zamanda yürütdüyü terrorçu mahiyyətli siyasəti ilə nəinki Azərbaycan, eləcə də bu bölgədə yaşayan digər ölkələr və xalqlar, eyni zamanda, dünyadakı bütün millətlər üçün təhlükə yaradırlar.

### Düşmən əlini yenidən günahsız azərbaycanlıların qanına batırdı

Ermənilər xislətlərindəki namərdliyə, qorxaqlığa xas olaraq döyüş meydanındakı məğlubiyyətlərinin acısını hər zaman əliyalın insanlardan almağa çalışırlar.

Lələtəpədə, Günnütdə, bu ilin iyul ayında Tovuzda rəşadətli Ordumuz tərəfindən hərb meydanında layiqli cavab alaraq yerinə otuzdurulan Ermənistan təəssüf ki, yenə də nəticə çıxarmadı. Azərbaycana qarşı təxribat törətmək niyyətindən əl çəkmədi. Sentyabrın 27-də yenidən təxribata başladı, şəhərlərimizi, kəndlərimizi atəşə tutdu. Bu dəfə də uğursuzluğa düçar oldu. İgid oğullarımız işğalçılara elə bir divan tutdular ki, ürəklərində yaranan əbədi vahimə min illər keçsə də yox olmayacaq.

Hünər meydanında Ordumuzla baş-başa gələ bilməyən düşmən son çarəsi kimi yenə də məkrli planlara, mülki əhalini hədəf alan təxribatlara əl atdı. Azərbaycan Ordusunun düşmənin yalnız hərbi obyektlərini nişan almasına baxmayaraq, Ermənistanın silahlı qüvvələri şəhərlərimizi, kəndlərimizi atəşə tutdu.

Eyni zamanda işğalçı Ermənistan özünün israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, yenidən Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutaraq mülki əhalini hədəfə aldı. Bu gün də Ermənistan xislətinə uyğun olaraq atəşkəs haqqında razılaşmaya əməl etmir və Azərbaycanın həm cəbhəboyu rayon və kəndlərini, həm də cəbhə zonasından uzaq məsafədə yerləşən şəhərlərini ağır artilleriya və raket atəşinə tutmaqda davam edir.

Ən dəhşətlisi isə odur ki, oktyabrın 11-də gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri, cəbhə xəttindən 80 kilometr uzaqlıqda yerləşən Gəncə Ermənistan rəhbərliyinin əmri ilə bombardman edildi. Ermənistanın bu vəhşi hücumu nəticəsində 4-ü qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralandı. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəydi.

Ermənistanın Gəncə cinayəti də dinc və günahsız azərbaycanlılara qarşı törədilən və Xocalıdan sonra növbəti soyqırımı aktıdır.

### Erməni faşizminin eybəcər sifəti

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsi zamanı da bildirdi ki, atəşkəs rejimi tətbiq olunandan sonra Ermənistan demək olar ki, dərhal öz çirkin əməllərini davam etdirib. Saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulub: "Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. Artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi".

Atəşkəsin elan olunmasından sonra Ermənistanın Azərbaycanın dinc əhalisinə açıq hücum etməsi və körpəsindən tutmuş yaşlısına kimi insanları hədəfə alaraq qətlə yetirməsi heç bir zaman terrorçu xislətindən əl çəkməyəcəyinin bariz nümunəsidir. Bu cinayət əməli bir daha sübut etdi ki, işğalçı ölkə əldə olunan razılaşmaya, imzaladığı sənədə heç vaxt əməl etmir. Bütün beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq tarixdəki alçaq və çirkin əməllərini davam etdirir. Düşünür ki, bu dəfə də yalançı hay-küyü ilə beynəlxalq ictimaiyyətə yanlış informasiyalar ötürə biləcək. Amma yanılır, elə sözügedən müsahibə zamanı dövlət başçımızın bildirdiyi kimi, bu, onların taktikasıdır. Çünki onlar öyrəşiblər ki, dünya meydanında onlara daim dəstək veriləcək: "...Ancaq bugünkü dünyada, internet dövründə bunu etmək onlar üçün artıq çox çətindir. Çünki artıq qeyri-ənənəvi mətbuat vasitələri var, internet var və məlumatın çatdırılması o qədər də çətin məsələ deyil. Ona görə bu gün onlar informasiya mübarizəsində də əvvəlki mövqelərə sahib deyillər. Biz isə haqq yolundayıq. Həm beynəlxalq hüquq baxımından, həm tarixi ədalət baxımından biz haqlıyıq. Biz öz torpağımızdayıq, öz torpağımızda vuruşuruq. Erməni əsgəri bizim torpaqlarımızdan çıxarsa, bu münaqişəyə də son qoyulacaq".

### Terrorçu Ermənistan ədalət qarşısında cavab verməlidir

Bu faciələri törətməklə ermənilər hər zaman yalnız bir məqsəd güdüblər: xalqımızı qorxutmaqla, mübarizə əzmini qırmaqla, tarixi dədə-baba torpaqlarımızın itirilməsi ilə razılaşmağa məcbur etmək. Elə buna görə də, azərbaycanlılar davamlı olaraq erməni millətçi-şovinistlərinin etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb, tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib. Və bütün bunlar kütləvi qırğınlarla, insanlığa yaraşmayan vəhşiliklərlə müşayiət olunub.

Amma Azərbaycan xalqı heç zaman işğalla barışmayıb və indi də işğalçının məkrli planlarla yurdumuzdan qoparmağa çalışdığı tarixi əzəli torpaqlarını geri qaytarmaq üçün beynəlxalq hüquq və normalar çərçivəsində mübarizəsinə başlayıb. Ötən xeyli müddət ərzində səbrimizi düzgün dəyərləndirməyi, sülh uğrunda həyata keçirdiyimiz səyləri qiymətləndirməyi bacarmayan azğın düşmənə Azərbaycan bu gün layiqli yerini göstərir. Torpaqlarımıza göz dikən, əlinə fürsət keçdikcə vətəndaşlarımıza qarşı soyqırımı törədən terrorçu Ermənistan ədalət mühakiməsi qarşısında mütləq cavab verəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Xankəndi boş qalıb

## Ermənilər qorxu və xof içindədirlər









**Cəbhədəki uğursuzluq Ermənistan cəmiyyətinin əsaslarını getdikcə daha dərindən sarsıdır. Hətta bu ölkənin KİV-i baş naziri N.Paşinyanı ordu ilə bağlı şoular düzəltməkdə ittiham edir. “4rd.am” saytı bu məsələyə nəzər salaraq onu da yazır ki, bir müddət əvvəl hərbi xidmətə könüllü yazılan Paşinyanın oğlu nədənsə döyüş bölgəsinə gəlməyib. Bildirilir ki, Aşot Paşinyanın könüllü şəkildə hərbi xidmətə yazılmasının siyasi şou olduğu öz təsdiqini tapmaqdadır.**

Məsələ bundadır ki, populist Paşinyan bu yolla sürətlə azalmaqda olan nüfuzunu qorumağa çalışır. O, ölkəni sosial, siyasi və iqtisadi problemlərdən çıxara bilmədiyi üçün bu cür yolla öz reytinqini saxlamaq istəyir. Halbuki, Ermənistan vətəndaşlarının Azərbaycan ərazisində hərbi xidmətə göndərilməsi bu ölkənin təcavüzkar dövlət olmasının açıq göstəricisidir.

### Aşot ortalarda yoxdur

“4rd.am” saytı daha sonra yazır ki, baş nazirin oğlu deyildiyi kimi hərbi xidmətə könüllü yazılsa da, bir müddət vaxtını Xankəndidə keçirib və sonra Yerevana qaçıb. Məqalədə Aşot Paşinyanın vaxtilə Qarabağda təhlükəsiz və komfortlu şəraitdə hərbi xidmət etdiyi, həmçinin onun burada vaxtını boş keçirmədiyi də xatırladılır. Bildirilir ki, o, hərbi xidmətdən başqa hər şeylə məşğul idi: “Hətta qudurmuşluğun dərəcəsinə baxın ki, evinin mühafizəsi üçün hərbi bölük ayrılmışdı. Burada onun özünə münasib bildiyi yoldaşları ilə bərabər gecə əyləncələrindən tutmuş qumar oyunlarına kimi hər şey təşkil olunurdu.

Aşot Paşinyan üçün Yerevandan böyük miqdarda pullar da göndərilirdi. Hərbi xidmətdə olarkən bu pulun onun nəyinə lazım olması barədə isə heç bir izahat verilmirdi. Görünən budur ki, hərbi xidmət baş nazirin oğlu üçün pis keçmirmiş. Necə ki, atası bütün qanunsuzluqlara gedərək baş nazir postunda vaxtını boş keçirmir, kreslosunda yerini daha da möhkəmləndirməyə çalışır. Ancaq gedişat göstərir ki, Paşinyan bu müharibədə uduzub və yaxın gələcəkdə hakimiyyətini itirəcək. Bu heç kimdə şübhə doğurmur”.

### Hərbi qulluqçular fərarilik edir, qocalar ölümə göndərilir

Ermənistanın “Haynews.am” saytı yazır ki, son döyüşlərdə Azərbaycan tərəfindən “Dağlıq Qarabağ müdafiə ordusu”nun bir bölüyü tam məhv edilib. 100-ə yaxın hərbçinin taleyi isə məlum deyil. Döyüş əməliyyatları zamanı ərazidəki alayın hüquqşünası da öldürülüb. Azərbaycan Ordusunun həmlələrindən sarsılan ermənilərin hərbi hissələrindən birinin hərbi qulluqçuları isə tam heyətdə fərarilik edib.

Sayt yazır: “Şahidlərdən biri bizə bildirdi ki, vurulmuş maşınlarda 30-dan çox hərbçi ölüb. Yerli hospitaldan daxil olmuş 8 yaralı haqqında bildirdilər ki, 5-nin vəziyyəti ağırdır. Hadrut rayonu istiqamətində gedən döyüşlərdə isə 100 nəfərdən çox itki verilib”.

Məqalədə qeyd olunur ki, birinci Qarabağ müharibəsində iştirak edən yaşlı nəsil orduda xidmət etməyə çağırılıb. Yaşlılarla yanaşı, qadınların da orduya cəlb edilməsinə başlanılıb.

### Xankəndi sakinləri Yerevana üz tuturlar

“Joxovurd” qəzetinin müxbirləri Xankəndidə hökm sürən vəziyyət barədə reportaj hazırlayıblar. Reportajda deyilir ki, şəhər tamamilə boşdur, insanların böyük əksəriyyəti Yerevana və digər şəhərlərə üz tutub. Qalanlar isə günlərini zirzəmilərdə gizlənməklə keçirirlər: “Şəhərin küçələrində heç bir hərbi texnika gözə dəymir. Ancaq Şuşaya gedən yolda çoxlu mülki maşınlar gözə dəyir”.





Daha əvvəl sosial şəbəkələrdə yayılan məlumatlardan məlum olurdu ki, erməni hərbçilər işğal altındakı ərazilərdən kütləvi şəkildə qaçan mülki şəxsləri geri qaytarmağa çalışırlar. Dağlıq Qarabağdakı qondarma rejimin “hökuməti” də təsdiq edir ki, işğal altında olan rayonlardan sakinlər tamamilə evakuasiya olunub, Xankəndidə isə qalan azsaylı sakinlər zirzəmilərdə gizlənir.

### “Telefonlar kəsilib, internet yoxdur”

Rusiyanın Teleqram kanalı “Mash” tərəfindən yayılan kadrlardan da Xankəndinin tamamilə boşaldığı diqqətə çatdırılır. Jurnalist Sergey Titov bildirib ki, axşam saat 17:00 olmasına baxmayaraq, şəhərdə nəyisə soruşmaq və ya nədənsə danışmaq üçün heç kəs tapılmadı: “Telefon bağlantısı, internet yoxdur, zəng etmək çox çətindi. Hətta işıqforlar da işləmir. Rəsmi olaraq telefon üçün sim kart alqı-satqısı qadağandır. İnterneti olan yeganə yerlər jurnalistlərin toplaşdığı hotel və ya mətbuat mərkəzidir”.

“İravnuk” qəzetinin müxbiri Qarabağdan olan erməni jurnalist Şaqen Nazaryandan cəbhə xəttində nə baş verdiyi haqda soruşub. Ş.Nazaryan bildirib: “Mən özüm hazırda Yerevandayam. Ancaq bütün qohumlarım, o cümlədən anam Dağlıq Qarabağdadır. Onunla danışmışam, deyir ki, səfərbərlik üçün kişi tapılmır. Xankəndi və Şuşa bomboşdur. Füzuli, Ağdam istiqamətində şiddətli döyüşlər gedir. Orada mənim əmim oğlanları və bacım yaşayırdılar, anam onları oradan çıxarıb Şuşaya aparmağa çalışır. Əgər situasiya dəyişməsə, ola bilsin uşaqları dəhlizlə Yerevan tərəfə çıxarsınlar. Xankəndidə isə həyat demək olar ki, ölüb”.

### Ordunun ərzaqla təminatında ciddi problemlər yaranıb

“İravnuk” qəzeti diqqəti ona da yönəldir ki, N.Paşinyan baş nazir postunu tutduqdan sonra etdiyi kadr dəyişiklikləri orduda vəziyyətin müsbətə doğru dəyişməsinə gətirib çıxarmayıb. Döyüş və qeyri-döyüş şəraitində itkilər əvvəlki kimi davam edib. Son döyüşlər isə ordunun ərzaqla təminatı baxımından ciddi problemlər yaradıb. Buna görə rəhbərlik orduda müqavilə əsasında xidmət edən hərbi qulluqçulara verilən ərzağı kəsməyə başlayıb.

Adının çəkilməsini istəməyən vəzifəli şəxs erməni mediasına bildirib ki, artıq bir müddətdir müqavilə əsasında muzdla işləyən hərbi qulluqçular hərbi hissələrin hesabına yemək yeyə bilmirlər. Onların aclıq çəkməmək üçün özləri ilə kənardan qida alıb gətirməkdən başqa çıxış yolları qalmayıb: “Böyük uğursuzluqla üz-üzəyik. Bu gedişlə əsgərləri aclıq öldürəcək. İçməyə suyu belə tapmaqda çətinlik çəkirlər. Artıq əsgərlər arasında xəstəlik tapanlar da var”.

Mənbə onu da deyib ki, hazırda orduda vəziyyət olduqca acınacaqlı hal alıb. Belə ki, baş nazir əsgərlərin evdən göndərilən müxtəlif məhsullarla təchiz edilməsinə qadağa qoyur, əvəzində isə müqavilələli hərbçilərə verilən təminatlar azaldılır, onlara yalnız öz hesablarına ərzaq almaları tapşırılır.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

# İsmayıllıda molokanların məskunlaşdığı İvanovkada həmrəylik aksiyası keçirilib

İsmayıllı rayonunun İvanovka kəndinin sakinləri - molokanlar Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarını, düşmənin dinc sakinləri hədəf almasını pisləyir və Ali Baş Komandan İlham Əliyevlə, Azərbaycan Silahlı Qüvvələri ilə həmrəylik nümayiş etdirirlər.




AZƏRTAC xəbər verir ki, əllərində üçrəngli Azərbaycan bayrağını, Azərbaycan Ordusu ilə həmrəylik şüarlarını tutan ivanovkalılar mərkəzi küçəboyu yürüş edərək, uca səslə “Qarabağ Azərbaycandır!”, “Qarabağ bizimdir, bizim olacaq!”, “Salam, əsgər”, “İvanovka sakinləri Azərbaycan Ordusunu salamlayır” şüarını səsləndiriblər. Aksiya iştirakçıları Azərbaycan Silahlı Qüvvələrinin torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizədə Vətənin çağırışına hazır olduqlarını, döyüşlərə qoşulmaq istədiklərini bildiriblər.



Qeyd edək ki, hazırda erməni işğalçılarına qarşı döyüşən Vətən övladları arasında bir neçə nəfər ivanovkalı da var. Ağsaqqallar aksiya çərçivəsində vətənpərvərlik nümayiş etdirərək Azərbaycan Ordusuna qələbə arzulayıb, bunun üçün dualar edərək, Tanrıdan kömək diləyiblər.


## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Şəmkir rayonunda yerləşən Uşaq Bərpa Mərkəzinə xarici kommunikasiya xətlərinin çəkilməsi işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları bənzər işlərdə təcrübə və kadr imkanlarına imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 150 (bir yüz əlli) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;(İddiaçının hüquqi statusu,nizamnaməsi notarial qaydada təsdiq olunmalıdır. İddiaçının tam adı,qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; təşkilatın blankında, təşkilatın möhürü və səlahiyyətli rəhbər şəxs tərəfindən imza ilə təsdiq olunmalıdır.*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Həmçinin müvafiq arayış 14.10.2020-ci il tarixdən sonra əldə edilməlidir.*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Həmçinin müvafiq arayış 14.10.2020-ci il tarixdən sonra əldə edilməlidir.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (dövlət büdcəsindən maliyyələşən qurumlar və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV-ləri).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
9. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
10. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
12. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (Notarial qaydada təsdiq olunuş surəti təqdim olunmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **04.11.2020-ci il saat 15:00** tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini **13.11.2020-ci il saat 18:00** tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **16.11.2020-ci il saat 15:00** tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi
### *açıq tenderə dəvət edir*

Fond tərəfindən avtomobillərin satın alınması.

**Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı : 150,0 (bir yüz əlli) manat**

**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə **(notarial qaydada təsdiq olunmuş)** və rekvizitləri;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış **(sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);***
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **05.11.2020-ci il saat 15:00** tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini **16.11.2020-ci il saat 15:00** tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **17.11.2020-ci il saat 15:00** tarixində açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi
### *açıq tenderə dəvət edir*

Fond tərəfindən avtomobillərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı : 250 (iki yüz əlli) manat**

**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə **(notarial qaydada təsdiq olunmuş)** və rekvizitləri;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış **(sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);***
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə)*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06.11.2020-ci il saat 15:00** tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.11.2020-ci il saat 15:00** tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.11.2020-ci il saat 15:00** tarixində açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərenerji" ASC
## Hərəkət edən zərbəli-kanatlı qazma qurğusu (avadanlıqlarla birlikdə), dizel generatoru və qoşqu evin satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: **Hərəkət edən zərbəli-kanatlı qazma qurğusu (avadanlıqlarla birlikdə), dizel generatoru və qoşqu evin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu ***https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** adı çəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: (012)-598-26-96; 490-09-27; 598-05-56).

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı ***dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.***

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq lisenziyalar və sertifikatlar.*

Sənədlər Azərbaycan dilində, skan olunaraq **dövlət satınalmalarının vahid internet Portalına** yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05 noyabr 2020-ci il saat 09:00-a** qədər, bank təminatını və tender təklifini isə **16 noyabr 2020-ci il saat 09:00-a** qədər **dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri **17 noyabr 2020-ci il saat 09:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.**

*Tender komissiyası*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
## *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil müəssisələrinə qaz xətlərinin çəkilməsi və sayğacların quraşdırılmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 16 noyabr 2020-ci il saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Portal vasitəsilə elektron elanla tanış ola və 200 (iki yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

*Tender komissiyası*

## Lənkəran Dövlət Universiteti
## yumşaq inventar, yataq ləvazimatı və xüsusi geyimlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər zərfdə möhürlənmiş şəkildə 15.10.2020-ci il saat 08:30-dan 20.10.2020-ci il saat 17:30-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

Zərflər 21.10.2020-ci il saat 10:00-da açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

*Tender komissiyası*

## Lənkəran Dövlət Universiteti
## digər nəqliyyat xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər zərfdə möhürlənmiş şəkildə 15.10.2020-ci il saat 08:30-dan 20.10.2020-ci il saat 17:30-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

Zərflər 21.10.2020-ci il saat 09:30-da açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti 2 saylı Tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun layihə-smeta sənədlərinin hazırlanması işləri üzrə 15 sentyabr 2020-ci il tarixində keçirilmiş kotirovka sorğusu Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 12 oktyabr 2020-ci il tarixli məktubu ilə ləğv edilmişdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən E tender gov.az portalında 17.06.2020-ci il tarixdə elan edilmiş "Bakı Telefon Rabitəsi" MMC-nin inzibati binası və struktur bölmələri üçün yeni yanğınsöndürmə avadanlıqlarının alınması, mövcud yanğınsöndürən balonların (quru kimyəvi tozlu və karbon dioksid tipli) texniki müayinəsi və yenidən doldurulması xidmətinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "FİRE SAFETY CASPİAN AZERBAİJAN" MMC müəyyən edilmişdir. "Bakı Telefon Rabitəsi" MMC və "FİRE SAFETY CASPİAN AZERBAİJAN" MMC arasında 06.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Aztelekom" MMC tərəfindən 10.08.2020-ci il tarixdə vahid satınalma Portalında "Aztelekom" MMC-nin və Gəncə Telekommunikasiya İdarəsinin inzibati binalarında istismarda olan liftlərə 18 ay müddətinə texniki xidmət işlərinin və istifadə olunması ehtimal olunan ehtiyat hissələrinin" satın alınması məqsədilə elan olunmuş açıq tender üsulu ilə satınalma prosedurunda tender təkliflərinin heç biri tenderin Əsas şərtlər toplusunun formal tələblərinə cavab verməmdiyi səbəbindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq tender prosedurunun davamından imtina olunur və prosedur ləğv edilir.

*Tender komissiyası*

## Göygöl Kardiorevmatoloji Sanatoriyası
## dezinfeksiya işlərinin yerinə yetirilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 23.10.2020-ci il saat 12:00-dək qəbul olunur.

Kotirovka sorğusunun təklif zərfləri 24 oktyabr 2020-ci il saat 12:00-da Göygöl şəhəri, Hummel küçəsi, 42 - Göygöl Kardiorevmatoloji Sanatoriyasında açılacaqdır.

Maraqlanan qurumlar əlaqələndirici şəxs Mansirov Tofiq - (0222) 5-31-70 və ya **ks.goygol@mail.ru** email ünvanı ilə əlaqə saxlaya bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Aztelekom" MMC tərəfindən 18.08.2020-ci il tarixdə vahid satınalma Portalında "2021-ci ilin sonunadək vəkil xidmətlərinin satın alınması" məqsədilə elan olunmuş açıq tender üsulu ilə satınalma prosedurunda tender təklifi verən iddiaçıların sayı 3-dən az olduğu səbəbindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə uyğun olaraq davamından imtina olunur.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (311900) sair torpaq, tikili və avadanlıqlar xərc maddəsinə əsasən inventarların
## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 525-55-45, daxili (6029) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20 oktyabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Naxçıvani küç., 25A ünvanında qəbul olunur.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 222990 xərc maddəsi üzrə ISO 37001:2016 Beynəlxalq Standartın tələblərinin tətbiqi üzrə məsləhət xidmətləri göstərilməsinin
## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 525-55-45, daxili (6029) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 20 oktyabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Naxçıvani küç., 25A ünvanında qəbul olunur.

*Tender komissiyası*

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

### ALLAH RƏHMƏT ELƏSİN!

Xarici İşlər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Tahir Tağızadəyə anası

**QÜLŞAT TAĞIZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7471
Sifariş 2396
Qiyməti 40 qəpik